GƏLDİ "BABAYİ-ƏMİR..."

Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Tərk ola bundan belə mehrü məhəbbət gərək,
Saxlayalım dəhri də canı səlamət gərək,
Eyləyəlim cümləmiz tərki-ticarət gərək,
Cəhlə tərəf getməyi eyləyək adət gərək,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Cümlə verib əl-ələ qeyriyə imdad edək,
Səy qılıb ruzü şəb, dəhrdə bir ad edək,
Məktəbi-şürbü qumar cəhd edib icad edək.
Bəlkə qəmü qüssədən könlümüzü şad edək.
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Məhv ola tezliklə bu hali-pərişanımız,
Himmət edək qalmaya zərrəcə nöqsanımız,
Zillət ilə çıxmaya həsrət ilə canımız,
Qoymayın, əldən gedə şövkətimiz, şanımız,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Dəmdir, açа uyqudan çeşmini xürdü kübar,
Olmalıyıq cümləmiz millətə xidmət güzar,
Annalara eyləyək eşq ilə canlar nisar.
Məscidi, minbərləri eyləyəlim tarümar,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Keyf ilə biganələr cümlə olub bəxtəvər,
Səy edərik, heyf, biz hər işə şamü səhər,
Eyləməz əsla bizə naleyi-məzlum əsər,
İstəmirik qeyridən ibrət alaq, müxtəsər,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

1915

RÖYA DEYİL

Tuti[1], yaz bu sözü xalqa elə elan, mən ölüm,
Hamı bilsin, ayılıb daxı müsəlman, mən ölüm!

Cümləsi elm ilə islah eyləyib iradın,
Şövqlə məktəbə qoymuş hamı öz övladın.
Cəhd edirlər, vətənin dəf edələr cəlladın,
Hərə bir növ ilə xidmətdə çıxarmış adın,
Tuti, yaz bu sözü xalqa elə elan, mən ölüm,
Hamı bilsin, ayılıb daxı müsəlman, mən ölüm!

Əhd ediblər, belə ki, olmaya bilməmrə yalan,
Hamı sidq ilə, məhəbbətlə dolansın əyan.
Tərk ola büğzü ədavət, törənə əmnü əman.
Eyləsin elmü sənaət bizi darayi-cahan.
Tuti, yaz bu sözü xalqa elə elan, mən ölüm,
Hamı bilsin, ayılıb daxı müsəlman, mən ölüm!

Görməzsən bir də müsəlmanda dilənsin füqəra,
Hər nə görsən, görəcəksən üqəla və füzəla,
Hamı təsdiq edəcək, hər nə buyursa üləma.
Yeni məktəb vətən övladına etmiş də bina.
Tuti, yaz bu sözü xalqa elə elan, mən ölüm,
Hamı bilsin, ayılıb daxı müsəlman, mən ölüm!

[1] "Tuti" jurnalına işarədir

Tərk ediblər, daxı oynanmayacaq bir də qumar,
Əvəzində gedəcək məktəbə xurd ilə kübar.
Pis əməllərdən hamı eylədilər istiğfar.
Eyləyir xeyr işə iqdam, müsəlman nə ki var.
Tuti, yaz bu sözü xalqa elə elan, mən ölüm,
Hamı bilsin, ayılıb daxı müsəlman, mən ölüm!

Yaxşı məktəblər açıb elm eləyirlər təhsil,
Ruzü şəb cəhd eləyib, öyrənəcəklər hər dil.
Görəcəksən, budu gəldi hələ doktor, uçitel,
Göz qabağında edən cilvə mühəndisdi, vəkil.
Tuti, yaz bu sözü xalqa elə elan, mən ölüm,
Hamı bilsin, ayılıb daxı müsəlman, mən ölüm!

1915

ŞÜCAƏT

("Suraxanski" küçə, yuxarı məhəllə,
Qoşa hamamın qabağı)

Yuxarı məhlənin əhlində şücaət görünüb,
Bilməyirsiz, kişilərdə nə əlamət görünüb?!

Bir-iki gün bundan əzəl xəlqlə dolmuşdu dalan,
Nə deyim, gəl görəsən, keyf nə keyfdi, ay aman!
Gürcü dümbək vurub, həm erməni də zurna çalan.
Ən qabaqda Qobu əhlindən idi yaxşı piyan,
Lahıc əhli də valay vurmada ondan da yaman,
Yuxarı məhlənin əhlində şücaət görünüb,
Bilməyirsiz, kişilərdə nə əlamət görünüb?!

Saqi olmuş biri təcil ilə doldurmağa cam,
Biri bədməst olub söylədi: – vurram, basaram.
Gər həqiqət, kişilər eyləsə bu işdə dəvam,
Verəcək həqq bulara həşrdə cənnətdə məqam.
Adəmiyyət rəvişin etdilər əlqissə tamam,
Yuxarı məhlənin əhlində şücaət görünüb,
Bilməyirsiz, kişilərdə nə əlamət görünüb?!

Eyləməkdə bu işi qeyri bir ad eylədilər,
Bir neçə qəmzədənin könlünü şad eylədilər,
Sanma, bihudə yerə dadü bidad eylədilər.
Demək olmaz ki, bular zərrə fəsad eylədilər,
Hər nə oldusa da, etməkdə cəhad eylədilər.
Yuxarı məhlənin əhlində şücaət görünüb,
Bilməyirsiz, kişilərdə nə əlamət görünüb?!

Gecə həm sübhə kimi evdə də oynandı qumar,
Məstü mədhuş hamı, yox arada bir huşyar.
Məsləhət gördülər ki, bilməyə bir kəs zinhar,
Sübh tezdən birisi Məxfiyə[1] etdi izhar;
Yuxarı məhlənin əhlində şücaət görünüb,
Bilməyirsiz, kişilərdə nə əlamət görünüb?!

1915

MOLLANIN

Gəlib orucluğun dəmi, çıxır sədası mollanın,
Bu ayda müstəcəb olar bütün duası mollanın.

Oruc tutub, namaz qılıb, gərək ibadət eyləyək,
Yalan danışmayıb daha gözəl sədaqət eyləyək.
Nə əmr qılsa mollamız, ona itaət eyləyək
Ki, yoxsa od vurar bizə, bilin nəvası mollanın,
Bu ayda müstəcəb olar bütün duası mollanın.

Deyir bu ayda mollalar, o kəs ki, töksə göz yaşı,
Həq ona huri lütf edər üzü günəş, kaman qaşı.
Ayağı səmti-qərbdə, keçibdi Şərqdən başı,
Olar o huridən biri öz aşinası mollanın,
Bu ayda müstəcəb olar bütün duası mollanın.

Dün etdi məclis içrə kim beş-altı molla məsləhət,
Nə molla söyləyim sizə – təmami kani-mərifət!

[1] "Məxfi" Ə.Vahidin gizli imzalarındandır

Qərar qoydular hamı, bu ay nə olsa mənfəət,
Tamam nəfimillətə gəlib səxası mollanın,
Bu ayda müstəcəb olar bütün duası mollanın.

Gər olmasaydı mollalar, yetərdi min bəla bizə,
Nə qəm ki ruzi-həşrdə verilməsə şəfa bizə.
Yoxumdu xovf, gər bular olarsa rəhnüma bizə,
Qəbula həq hüzuruna yetər duası mollanın,
Bu ayda müstəcəb olar bütün duası mollanın.

Bizim bu hacı mollaya əcəl əgər aman verə,
Keçənki il kimi çıxa bu il də fərqi-minbərə.
Məgər ki, molladır Qulam – o zalım oğlu heyvərə,
Deyərsən, afərin buna, budur ağası mollanın,
Bu ayda müstəcəb olar bütün duası mollanın.

1915

NƏ FAİDƏ

Olma vəfalı, əhdü vəfadən nə faidə?
Ol biəda, vəfavü ədadən nə faidə?

Vermə fəqirə, səy elə, yığ bangə pulları,
Əhli-səxavət olma, səxadən nə faidə?

Xalqın malını cəhd elə ye, xoş keçirt günün,
Qədri-həyanı bilmə, həyadan nə faidə?

Aludə olma məktəbə, dil vermə sənətə,
Uyma səfayə, zövqü səfadən nə faidə?

Xəffaş kimi zülmət içində dolan müdam,
Əsla ziyanı sevmə, ziyadən nə faidə?

Məzlumə zülm qılmaq ilə ad qazangilən,
Kim der cəfanı görmə, cəfadən nə faidə?

Təyyarə ilə çıxma göyə, yerdə ol müdam,
Seyri-səmanı qılma, səmadən nə faidə?

Cəhd et, həmişə dəhrdə ahəngər olgilən,
Zərgərlik etmə – simü tiladən nə faidə?

1915

NƏ LƏZZƏTİ

Dünya üzündə olmadın ədna, nə ləzzəti?
Ədnalıq ilə olmadın əla, nə ləzzəti?

Meyxanə içrə aşnalar ilə şərab içib,
Sərməsti-badə olmadın əsla, nə ləzzəti?

Manəndi-Qeys Leyliyə dil vermədi, nə sud,
Kəndinə mənzil olmadı səhra, nə ləzzəti?

Bulvar içində gəştə çıxıb seyd qılmadın,
Nazü nəzakət etmədi Lolya, nə ləzzəti?

Ağlın var isə anlama, bilmə qüsurunu,
Oldun cahanda vaqifi-məna, nə ləzzəti?

Asudəlik nədir? Ölüb öldür zəmanədə,
Mərdin başında olmadı qovğa, nə ləzzəti?

Xalqa nəsihət eylə, özün hər nə bildin et,
Oldun tutaq ki, bir yekə dana, nə ləzzəti?

Hər yanda xani-nemət olan əhli-fəqr üçün,
Leyk olmaya o bəzmdə molla, nə ləzzəti?

Qahir[1] nə sud söyləyəsən xalqa möizə,
Xalq olmadı təmamisi rüsva, nə ləzzəti?

1915

[1] "Qahir" Ə.Vahidin gizli imzalarındandır

YAXŞIDIR

Bavəfa olmaqdan isə bivəfalıq yaxşıdır,
Baədalıqdan nə ləzzət, biədalıq yaxşıdır.

Hakimiyyət rütbəsini sanma İran şahi tək,
İstəmə alilik, əlbəttə, gədalıq yaxşıdır.

Surəti-zahirdə xalqa ol şəriət hakimi,
Batinən salusü təzvirü riyalıq yaxşıdır.

Ölsə də millət acından, məncə, pamal olsa da,
Bir qəpik sərf etmə əsla, kəmsəxalıq yaxşıdır.

Varsa ağlın, gözləmə namusü arü qeyrəti,
Faidə yoxdur həyadan, bihəyalıq yaxşıdır.

Saxla yadında, əzizim, yar ilə biganə ol,
Qeyri millətlərlə etmək aşinalıq yaxşıdır.

Qoyma, sansınlar səni ayineyi-aləmnüma,
Olma düz, cəhd eylə, kəc ol, kəcnümalıq yaxşıdır.

1915

NƏ İMİŞ

Mollalar milləti gümrahə, demə, rəhbər imiş,
Əhsən, əhsən, kişilər naibi-peyğəmbər imiş!

İftira eyləməyin bunların haqqında, yəqin
Demişik bunlar üçün hiyləgəri-ruyi-zəmin.
Ah!.. Biz bilməmişik, bunlar imiş sərvəri-din,
Bunların haqqını pamal eləyən kafər imiş!

Tapmaz idik, bu qədər şənü şərəf, cahü cəlal,
Olmasaydı üləma sayəsi, əlhəqq məhü sal,
Əhli-islamə yetərdi, bəli, hər gündə zəval,
Doğrudan da üləma millətə taci-sər imiş!

Olmasaydı bizə bunlardan əgər rahi-nicat,
Yoxsa məhv eylər idi bizləri filcümlə məmat,
Mümkün olmazdı, həqiqət, bizə dünyadə həyat,
O həyatın səbəbi aləmi-xoşmənzər imiş!

Olmasaydı bu cahan içrə əgərçi üləma,
Millətin dərdinə bəs kimlər olar idi dəva?!
Bunlar imiş bütün aləmdə bizə rahnüma,
Demək olmaz bulara maili-simü zər imiş!

Bir də min bəd qəzet, jurnala aldanmamalı,
Cəhd edib elmü-ədəb nolduğunu qanmamalı,
Bunlara, molla demişkən, daha tullanmamalı,
Müxtəsər, hər nə yazırlar, hamı dərdü sər imiş!

1915

NƏYƏ LAZIM

Salus ayyara bənzətmə

Oldun tutalım, sahibi-vicdan, nəyə lazım?
Ya kani-ədəb, mənbəyi-ürfan, nəyə lazım?

Kəsb eyləmə cəhd ilə cahanda ürəfalıq,
Dünyada kişi olmadı nadan, nəyə lazım?

Murü mələk asa düş ayaq altına daim,
Tut rəsmi-gəda, şəni-Süleyman, nəyə lazım?

Rəncidə elə xalqı, danış acı zəhərtək,
Şirin danışar isə gər insan, nəyə lazım?

Tənqidi-həsüdanəni yaz əhli-kəmalə,
Ağlında əgər olmadı nöqsan, nəyə lazım?

Şairlik elə, anlama əndazeyi-şeri,
Yazdıqların həp olmadı hədyan, nəyə lazım?

Sərf etmə pulun, millət əgər ölsə acından,
Biçarələrə eyləmək ehsan, nəyə lazım?

Küffar kimi vermə həvəs elmü fünunə,
Elm əhli olar isə müsəlman, nəyə lazım?

Zahid kimi məxluqi əvam etməyə səy et,
Dünyayə sat imanını, iman, nəyə lazım?

1915

QOCALIQDAN ŞİKAYƏT

Qocalıq saldı ayaqdan məni, ey dad, ölürəm!
Düşməyir indi cavanlıq ələ, fəryad, ölürəm!

Gözümün nuru gedib, dizdə yoxumdur taqət,
Baxıram mən işin əzvayişinə hər saət,
Görürəm hərdəm özümdə bir əcaib halət,
Gecələr sübhə kimi bir yata bilməm rahət,
Qocalıq saldı ayaqdan məni, ey dad, ölürəm!
Düşməyir indi cavanlıq ələ, fəryad, ölürəm!

Bir kəsim qalmamış ərz edəm ona əhvalım,
Dərd çəkməkdən ağarmış bu qara saqqalım,
Qırılır evdə acından gecələr ətfalım,
Bir günü eyləməz imdad mənə iqbalım,
Qocalıq saldı ayaqdan məni, ey dad, ölürəm!
Düşməyir indi cavanlıq ələ, fəryad, ölürəm!

Necə asudə olur dərdü bəladən başım?
Ağlamaqdan coşub ümmanə dönüb göz yaşım.
Himmət etməz mənə əsla nə qohum, qardaşım,
Belə bir gündə ki, həştadı keçibdir yaşım...
Qocalıq saldı ayaqdan məni, ey dad, ölürəm!
Düşməyir indi cavanlıq ələ, fəryad, ölürəm!

Xoş o günlər ki cavanlıqda cəlalım var idi,
Haq bilir kim, nə qədər dövlətü malım var idi,
Nə ki, bir böylə mənim fikrü xəyalım var idi,
Nə də bir böylə mənim dərdü məlalım var idi.
Qocalıq saldı ayaqdan məni, ey dad, ölürəm!
Düşməyir indi cavanlıq ələ, fəryad, ölürəm!

1915

AR QIL!

Kəmalü elmi xoşlama, cavansan, oğlum, ar qıl,
Burax bu rahi-məktəbi, cəhaləti şüar qıl!

Amandır olma naxələf, tutub rəhi-cəhaləti,
Mənim tək ad qazangilən, büruzə ver şücaəti.
Çəkinmə cövrü zülmdən, demə ki, var qəbahəti,
Özünə rağib etgilən hərasdən cəmaəti,
Vurub yıx, öldür aləmi, hünərlər aşikar qıl!

Olurmu elmdən görək zəmanədə səmər, oğul?
Qılıbmı elm bir kəsi cahanda bəxtəvər, oğul?
İnanma, xeyri var sənə, tamamıdır hədər, oğul?
Əbəsdi, vermə kəndinə bu qədr dərdüsər, oğul?
Görəndə elmi, məktəbi, dayanma, tez fərar qıl!

Burax təriqi-məktəbi, yüyürmə rahi-sənətə,
Çalış ki, salma başını bəlavü dərdümöhnətə,
Məcaz ilə dolangilən, baxan hanı həqiqətə?
Həmişə talib olginən cahanda qətlü qarətə,
Əziyyət eylə xalqına, cəfayi-bişümar qıl!

Fəqirə töhmət eyləmək həmişə olsun adətin,
Bir eylə zalım ol, sala cahana lərzə şöhrətin,
Vur, öldür, arta günbəgün xəlaiq içrə hörmətin,
Qəm etmə, olsa da əgər əsir qeyri millətin,
Həmişə məsləkin kimi bu xalqı tarümar qıl!

Hər ol kəs ki dəhrdə xəyalın elmə ram edər,
İşıq günün əbəs yerə özünə misli-şam edər,
Çəkib qəmini millətin təəyyüşün həram edər,
Saqınma, milləti-səfeh ona bir ehtiram edər,
Burax bu rahi-məktəbi, cəhaləti şüar qıl!

1915

OLMAQDAN İSƏ

Xarı xəstək, sədəf içrə gövhər olmaqdan isə,
Nökər ol aləmə kim, taci-sər olmaqdan isə.

Təlx güftarın ilə rəncidə et xalqı müdam,
Xoşdur acı danışıq ləbşəkər olmaqdan isə.

Cəhl ilə eyni səadətdü cahanda yaşamaq,
Çalışıb, elm oxuyub bəxtəvər olmaqdan isə.

Yeydir aləmdə hünərsiz yaşamaq insanə,
Dar dünyada əbəd pürhünər olmaqdan isə.

Milləti-qəmzədənin hali-pərişanından,
Yaxşıdır bixəbər ol, baxəbər olmaqdan isə.

Düşmək ahəntək ayaq altına çox izzətdir,
Dəsti-sərrafdə kim simü zər olmaqdan isə.

Qoymamaq eyni səadətdir, ucalsın fələkə,
Bir dirəxt ki, min il barvər olmaqdan isə.

1915

DAD ÇƏKMƏKDƏN

Ə.Müznib əfəndiyə nəzirə

Tükəndi ömrümüz millət yolunda dad çəkməkdən,
Çoxaldı dərdimiz min dad, min fəryad çəkməkdən.

Cavan ikən qocaldıq, getdi, heyfa, ömrümüz badə,
Nə camin nəşəsin gördük, nə olduq maili-badə,
Qəmindən millətin şəbü ruz gəldik dadü fəryadə,
Tükəndi ömrümüz millət yolunda dad çəkməkdən,
Çoxaldı dərdimiz min dad, min fəryad çəkməkdən.

Şərabi-eşqi-millətlə, həzar əfsus, məst olduq,
Görüb əzbəs cəfa daşın sürahi tək şikəst olduq,
Düşüb qəm həbsinə zənciri-cəhlə payibəst olduq,
Yıxıldı ol zaman evmiz ki, biz millətpərəst olduq,
Tükəndi ömrümüz millət yolunda dad çəkməkdən,
Çoxaldı dərdimiz min dad, min fəryad çəkməkdən.

O kəs ki, istəyir, möhnətdən olsun canı asudə,
Gərəkdir, millətinin olmasın fikrinə aludə,
Xəlilüllahı yaxsın atəşi-bidadi-Nəmrudə,
Bizim tək olmasın viranələr küncündə qayqudə,
Tükəndi ömrümüz millət yolunda dad çəkməkdən,
Çoxaldı dərdimiz min dad, min fəryad çəkməkdən.

Qəmi-millət bizi məhrum qıldı eyşü işrətdən,
Yədi-ümmidimiz qət oldu axır malü dövlətdən,
Qurtarmaq əmri-müşküldür, bu qədri dərdü möhnətdən,
Cahanda görmədik bir faidə, əfsus, millətdən,
Tükəndi ömrümüz millət yolunda dad çəkməkdən,
Çoxaldı dərdimiz min dad, min fəryad çəkməkdən.

Kənarə almadıq şövq ilə bir dəm nazlı cananı,
Nə olduq Sonya yarın bir gecə izzətli mehmanı,

Əbəs çəkməkdəyik, dünya üzündə dərdi-bicanı,
Qərəz, bihudə sərf etdik bu ömrü, şanlı dövranı,
Tükəndi ömrümüz millət yolunda dad çəkməkdən,
Çoxaldı dərdimiz min dad, min fəryad çəkməkdən.

1915

ƏHSƏN, ƏHSƏN!

Derlər, düşübdü İran səhmanə, əhsən, əhsən!
Əhsəntü barəkallah İranə, əhsən, əhsən!

İranda mən sanırdım, yox öylə bir cəmaət,
Bir gündə eyləsinlər İranə bir himayət,
İranlılarda olmaz, derdim ki, bir fərasət,
Derdim: düzəlməz İran, etsə qiyam, qiyamət,
Düşmüşdür indi derlər, səhmanə, əhsən, əhsən!
Əhsəntü barəkallah İranə, əhsən, əhsən!

İran cəmaətinə söylərdi xalq qanmaz,
Qəflətlə cümlə yatmış, hərgiz daha oyanmaz.
Kim der ki, millətinin İranə könlü yanmaz,
Bilməm, Baba[1], inanır xalq indi, ya inanmaz,
Derlər, düşübdü İran səhmanə, əhsən, əhsən!
Əhsəntü barəkallah İranə, əhsən, əhsən!

Meydani-rəzmə olmuş amadə cümlə sərbaz,
Çəng etməyə qılırlar şövq ilə bəs ki, ağaz.
Sanki kəbutər üstə eylər hücum şəhbaz.
Alət yerinə almış cümlə ələ xəkəndaz,
Derlər, düşübdü İran səhmanə, əhsən, əhsən!
Əhsəntü barəkallah İranə, əhsən, əhsən!

İranə bir deyən yox, ey binəvayi-müztər,
Get karinin dalınca, yox səndə öylə ləşkər,

[1] "Babayi-Əmir" jurnalı nəzərdə tutulur

Öz dərdinə əlac et, qalma bu qədri bisər,
Çıxma kənarə yoldan, həddin deyil bu işlər,
Məğrur olma deyirlər İranə, əhsən, əhsən!
Yeksər düşübdür İran səhmanə əhsən, əhsən!
Əhsən mən etdiyim bu böhtanə, əhsən, əhsən!

1915

EY GÖZÜM

Çəkmə qəm millət yolunda, şad ikən qıl seyri-bağ,
Lalərüxlər seyrin et, çək sineyi-məzlumə dağ.

Məskən et meyxanə içrə, getmə səmti-məscidə,
Məst ol, hər gün başa çək saqi əlindən bir ayaq.

Yandır öz dindaşını zülm atəşilə öylə kim,
Yandırar pərvaneyi-sərgəştəni hər şəb çıraq.

Tutiasa qılma şəhdü şəkkərə hərgiz həvəs,
Fəzləxari-nikbət ol səhralar içrə misli zağ.

Bir könül şad etmək üçün min könül qəmxanə qıl,
Ağlasın çeşmani-mərdüm, öz dəmağın eylə çağ.

Eşqi-Şirin ilə çal başa səfahət tişəsin,
Qoy səni Fərhad sansınlar, məkanın eylə dağ.

Bağla könlün eşqi-tərsayə, əlin çək tiğidən,
Qıl səlibi həzrəti-Sənan kimi daim soraq.

Zahidasa sənəti, elmü fünuni et kənar,
Seyd qılmaqçün əvamı ovçu tək çok bəhrə ağ.

1915

FƏRMAN

Məsciddə bu il hökm elədi Molla Süleyman,
Bir gündə gərəkdir kəsilə Bakıda qurban.

Vəz eylədi minbərdə bu növ ilə o, mövla,
Cəm idi başında o zaman bir neçə molla.
Bəsdir, dedi kim, eylədilər milləti rüsva,
Hər ildəkitək verməyiniz bir cürə fitva.
Məsciddə bu il hökm elədi Molla Süleyman,
Bir gündə gərəkdir kəsilə Bakıda qurban.

Bir yerdə edək cümlə sədaqət ilə bayram,
Hər məclisi-ixvanə edək şövqlə iqdam.
Fəqr əhlinə ehsan edək, ey milləti-bədnam!
Bəlkə, sanalar bizləri də sərvəri-əyyam.
Məsciddə bu il hökm elədi Molla Süleyman,
Bir gündə gərəkdir kəsilə Bakıda qurban.

Mehr ilə edək bir-birinə ərzi-üxüvvət,
Heç olmaya ortada qərəz, kin ilə bidət.
Bilmərrə yoxalsın aradan kibrü məniyyət,
Əğyar baxıb bizlərə ta ki ala ibrət.
Məsciddə bu il hökm elədi Molla Süleyman,
Bir gündə gərəkdir kəsilə Bakıda qurban.

Tiri-qəmə istərsək əgər, olmayaq amac,
Əl tutmalıyıq şəhrdə varsa nə qədər ac.
Qeyrət günüdür, olmayalar özgəyə möhtac,
Kim qatsa xələl şərə, edin ortadan ixrac.
Məsciddə bu il hökm elədi Molla Süleyman,
Bir gündə gərəkdir kəsilə Bakıda qurban.

Hər kəs belə molla sözünü eyləsə inkar,
Bişübhəvü şəkk aqibət, əlbəttə, olur xar.
Hər kəs ki, bu şeyxə ola dünyada tərəfdar,
Azadə gedər cənnətə, olmaz o günahkar.
Məsciddə bu il hökm elədi Molla Süleyman,
Bir gündə gərəkdir kəsilə Bakıda qurban.

1915

ZƏNN EDƏR

İnsan müdam aqili divanə zənn edər,
Öz dost, aşinasını biganə zənn edər.

Eylər sicudi-meykədə, məscid hesab edər,
Öz məscidi-şərifini meyxanə zənn edər.

Əfsanə olsa da, inanar cahil əmrinə,
Arif sözünü doğrusa, əfsanə zənn edər.

Dünya içində bir evi abad istəməz,
Bayquşmisal hər yeri viranə zənn edər.

Arif həmişə badeyi-qəflətlə məst olub,
Hüşyar əhli-aləmi məstanə zənn edər.

Zahidmisal məkrü riya damini qurub,
Mərdüm üzündə göz yaşını danə zənn edər.

Bəziləri tək arifə divanə söyləyib,
Amma özünü aqilü fərzanə zənn edər!

1915

OLMASIN

Arif odur ki, dəhrdə əhli-ədalət olmasın,
Sahibi-əğlü mərifət, kani-səxavət olmasın!

Adəm odur ki, tərk edə büsbütün arü qeyrəti,
Mali-yetimi udmağa ruzü şəb ola niyyəti.
Zövqü səfayə dil verib çəkməyə dərdi-milləti,
Nəcə ki mollalar demiş: beylə bir adət olmasın!

İnteligent olan gərək müdami meypərəst ola,
Ayıq zamanı olmayıb, həmişəliklə məst ola.
Zülfi-nigarə dil verib, əsirü payibəst ola,
Ol deyil, aqil, onda kim boylə əlamət olmasın!

Tutaq ki, sandılar səni bir yekə əhli-mərifət,
İnanma ki, olar sənə bu işdə zərrə mənfəət.
Rəisi-şəhr olan, bəli, edər bu növi məşvərət,
Həzar dəfə bədəzin daha səadət olmasın!

Daim əziyyət eyləmək hər kəsə olsun adətin,
Şöhreyi-şəhr ola gərək zillət ilə səfahətin.
Eylə xəyanət, olsa gər hər kəs ilə şərakətin,
Həzzi nə ol şərikliyin onda xəyanət olmasın?!

1915

BABA ÖYÜDÜ

Mehtər Nəim[1] əfəndiyə oxşatma

Əzizim, aqil olma, cəhd qıl tut rəsmi-nadanlıq.
Fəqət nadanlıq ilə dəf olar hər bir pərişanlıq.

Dəm ur[2] zahid kimi bihudə daim adəmiyyətdən,
Düşünmə, anlama, bilmə, nədir dünyadə insanlıq.

Salıb nari-fəraqə, Adəmi cənnətdən ixrac et,
Elə zahirdə möminlik, vəli batində şeytanlıq.

Cavansan, ömrünü sərf etmə elmə, keyfə məşğul ol,
Çəkərsən aqibət, oğlum, qocalsan çox peşimanlıq.

Olub sailbəkəf daim dolan, bilmə həya qədrin,
Gədalıq rütbəsin kəsb et, budur aləmdə sultanlıq.

Müsəlmansan nə eybi, vur, yıx, öz dindaşını öldür,
Budur, qanuni-milliyyət, budur rəsmi-müsəlmanlıq.

İnanma elmdən bir faidə var, derlər insanə,
Qulaq vermə bu mövhum sözə, odur məhz heyvanlıq.

Meyü məşuqə ilə gündə məst ol, hüşyar olma.
Əgər kəsb etmək istərsən cahanda elmü ürfanlıq.

Görüb bir əcnəbi, tülkü kimi tez gəl ona yalvar,
Vəli həmcinsinə qəhr eylə daim, eylə aslanlıq.

1915

[1] Şair Seyid Zərgərin gizli imzasıdır
[2] Vur

ARİF ODUR Kİ...

Arif odur ki, gözləməyə ehtiramını,
Rüsvayi-aləm eyləyə öz nəngü namını.

Gəldi-gedərlə sabiti-təşxis qılmaya,
Fərq etməyə rəqib ilə yarın məqamını.

Yüz il birilə həmdəm olub duz-çörək yeyə,
Bir gündə yüz ilin poza həqqi-səlamını.

Xalqa nişan verə özünü xadimi-vətən,
Əmma düşünməyə vətənin ehtişamını.

Hal əhli zənn edə özünü ruzü şəb, vəli
Qal ilə müttəsil keçirə sübhü şamını.

Hər kəc nigəhlə həmdəm olub, düz hesab edə,
Ney kimi suzi-dil edə Rüstəmlə Samını.

Bəhsi-kəmalü əql edə naqis ikən özü,
Çərxin hilal zənn edə mahi-təmamını.

Xud kasəlis ola, sana əhbabi kasəlis,
Könlüm kimi şikəst edə Cəmşid camını.

Varlı görəndə səcdə edə bütpərəst kimi,
Yoxsul görəndə döndərə həcvə kəlamını.

1916

DEMƏDİM?

Qəyyur əfəndiyə[1] oxşatma

Ay Baba, mən sənə bu mətləbi pünhan demədim?!
Yazma nahaq yerə "ariflərə" böhtan, demədim?!

[1] Cəfər Cabbarlının gizli imzalarından biridir

Sənə layiqmidir, hər aqilə irad edəsən?
Göstərib səhvini iradını tedad edəsən?
Sən gərək badə içib, xatirini şad edəsən,
Könlünü badəpərəst olmağa mötad edəsən,
Eybcu olma, əfəndim, sənə hər an demədim?!

Yeri vardır, səni təqbih edə bir pakinəjad,
Haqlıdır, gər sənə yazsa da o, min dürlü irad,
Çünki ustadır o, görmüşdü əzəldən "ustad",
Ey qatan bir-birinə aləmi, ey kani-fəsad,
Bikəmal olma, yetər ağlına nöqsan, demədim?!

Tutalım, möcüzə var səndə yədi-beyza tək,
Nə gərəkdir sənə, Firon boğasan Musa tək?
Saçdığın nuru görür xalq şəbi-yelda tək,
Sən əgər mürdələr əhya edəsən İsa tək,
Yenə bu xalq gətirməz sənə iman, demədim?!

Nə işin tacir əfəndi uduzub var-yoxun,
Satıb əmlakını, hərgiz verə bilməz naloqun,
Şəhrin incitmədəsən büsbütün ac ilə toxun,
Adil ol, ay Baba, düş barı, bir insafə yaxın,
Aşayıb şorbanı, çək başına yorğan, demədim?!

Nə yerin sahibisən, arifisən, şairisən?
Alimi, rindü müdiri, vələdi-mahirisən.
Hansı bir el-obanın rahimisən, qahirisən,
Qoyma övladi-nəcibə dolaşa bakiri sən
Ki, qopar Nuh kimi başına tufan, demədim?!

1916

GÖRÜRƏM

Tuzə şəhərdən Qəyyur əyyar
əfəndiyə oxşatma

Arifin hər işi dünyada fənadır, görürəm,
Arif olmaq özü bir başa bəladır, görürəm.

Qədrü qiymət hanı ol rind qoya ürfanə?
Ya ki, əql əhlini zənn eyləməyə divanə?
Arifin haqq sözünə söyləməyə əfsanə,
Can deyilmi, olasan məsti-meyü meyxanə!
Xalq hamı maili-mey, zövqü səfadır, görürəm.

Nə gərəkdir mənə, fəryad qılam millət üçün,
Ya ki, sərf eyləyəm övqatımı milliyyət üçün?
Ya verim badi-fənaya özümü qeyrət üçün,
Nolur hasil mənə, aya, bu qədər zəhmət üçün?
Mənim haqqımda həqiqət, bu cəfadır, görürəm.

Millətin möhnətinə yandım əbəs sübhü məsa;
Etmədim kamimcə dəhrdə bir seyrü səfa,
Der idim, xalq məni zənn eləsin, həm ürəfa,
Tutalım, oldum əfəndi, ürəfa ya üdəba,
Baxıram halinə, ölkə ürəfadır, görürəm.

Sevirəm mən bunu, əlhəqq, bu imiş ünsiyyət,
Qoyasan adını dünyada fəqət intiligent,
Lakin heç bilməyəsən kim, nə imiş milliyyət,
Olasan sübhü məsa maili-eyşü işrət,
Mey içib söyləyəsən, ruhə qəzadır, görürəm.

Arif olmaq yaraşır boynuyoğun, şişpapağa,
Xəlq gördükdə onu bəzmdə dursun ayağa.
Xoş gəlibsiz, – hamı bir yerdə desinlər: – ay ağa!
Hörmətin tutmasalar "movzeri" çəksin ayağa,
Dəhrin övzayi-əzəldən bu binadır, görürəm.

Tazəşəhr içrə nə qədri görürəm, vardır ədib,
Elmü tarixə bələd, cümləsi hər dərdə təbib,
Gəlməmiş əsrə nə bunlar kimi bir "mərdi-nəcib",
Aşina zənn eləyirlər kimi gördükdə rəqib,
Bu əda məndən həqiqətdə cidadır, görürəm.
Arif olmaq özü bir başa bəladır, görürəm.

1916

XALİ

Mehri-ünqasını qıl, kuhi-vəfadən xali,
Kəbəyi-məqsədin et, səyü səfadən xali.

Talib ol zülmətə, xurşididən ikrah eylə,
Kəndini şəbpərə tək eylə ziyadən xali.

Hər bina eyləsən icad cahan mülkündə,
Qılma məkkarəliyi heç o binadən xali.

Sərf qıl ömrünü zillətlərə rahət yaşama,
Olmasın mərd gərək dərdü bəladən xali.
Elmi gər Çində də vacib buyurub peyğəmbər,
Getmə ardınca, deyil elm xətadən xali.

Çeşmi-suzəndən əgər naqəyə yol mümkündür,
Kim deyər, olmaya zöhd əhli riyadən xali.

1916

NƏDARƏM

Asudə mənəm ki, xər nədarəm,
Əz abü ələf xəbər nədarəm.

Dünya dəyə bir-birə sərapa,
Min həşr ola şuriş ilə bərpa,
Sərtasər əgər dağılsa dünya,
Təsir eləməz mənə heç əsla.
Asudə mənəm ki, xər nədarəm,
Əz abü ələf xəbər nədarəm.

Millət bata yüz qəmü məlalə,
Ney tək edələr fəqanü nalə.
Hər gün yetə gər vətən zəvalə,
Bir zərrəcə düşmərəm xəyalə,
Asudə mənəm ki, xər nədarəm,
Əz abü ələf xəbər nədarəm.

Yoxsul ola gər bütün cəmaət,
Gər ölsə də qılmaram himayət.
Millət qəmi, biqəmə nə hacət?
Bir kəs mənə eyləməz məlamət,
Asudə mənəm ki, xər nədarəm,
Əz abü ələf xəbər nədarəm.

Nə əhli-diləm ki, anlayam dil.
Nə arifəm, elm edəm də təhsil.
Nə öyləcə naqisəm, nə təkmil,
Nə xahiş edərsəm, olar hasil,
Asudə mənəm ki, xər nədarəm,
Əz abü ələf xəbər nədarəm.

1916

QUBA MEYDANI

Çıxdı səd heyf, əlimizdən ol ədalət kani,
O juliklər yatağı, köhnə Quba meydani.

Var idik bir neçə dəllal hamı pakizənəjad,
Müxtəsər kim, bizim əlmizdə idi hər bir zad,
Xalq gər hiylədə şeytanı sanır kani-fəsad,
Bizə şagird olamazdı, hələ qalsın ustad,
Hiyləvü məkr ilə fəsx etmiş idik şeytani.

Karimiz sübhü məsa aləmi aldatmaq idi,
Birə beş xalqa baha qiymətə şey satmaq idi,
Qərəz, adət bizə asudə yeyib yatmaq idi,
Göz görə xalqı bütün karimiz aldatmaq idi,
Bizə, yarəb, yenə qismət elə o dövrani.

Bundan əqdəm, Baba, biz keyf çəkərdik məqul,
Eləmişdik hamı arsızlığı şövq ilə qəbul,
Söysün aləm məni, ta ki mənə pul olsun hüsul,
Kişinin qeyrəti, namusu fəqət puldur, pul,
Satmasam mən pula, kafirəm əgər imani.

Kim ki, meydanə tərəf eyləsə idi iqdam,
Vay onun halına olsun, o da ki, onda əvam,
Çəkər idik o fəqirin işinə biz əncam,
Var-yoxun ol dəm əlindən alar idik itmam,
Becəhənnəm ki, acından çıxa onun cani.

Bizə bu sənət o vaxt ki, Baba, bir adət idi,
Ruzü şəb satdığımız köhnə, çürük saət idi.
Canımız bunca əziyyətdən əcəb rahət idi,
Tez bu meydanə gələrdi kimə nə hacət idi,
Məkr ilə almağa məcbur edərdik ani.

Bir də satdırmağa saldata verərdik şalvar,
O dəm ətrafın alırdı bütün əhli-bazar,
Xeyli təriflər idik, görsə idik müştəri var,
Xalqdan tez onu eylərdik o saətdə kənar,
Mağazin malıdı, söylərdik ona pünhani.

Aldanardı, biz ona hər nə deyərdik o zaman,
Neyləsin ol, bizi ancaq kişi eylərdi güman,
Tez ikən malı alıb göz görə çəkdikdə ziyan;
Bu sözü suz ilə söylərdi, edib ahü fəğan,
Biz müsəlmanda da insafü mürüvvət, də, hani?

1916

İNSAN OLURAM

Şüəralıq rəvişin tərk edib insan oluram,
Nola, divanə isəm, aqili-dövran oluram.

Büsbütün xalq adam öldürmək ilə ad qılır,
Yox bir irad qılan onlara, hər zad qılır,
Şüəra millətin iradını irşad qılır,
İndi ki, bəzi "mühərrir" mənə irad qılır,
Mən də onlar kimi bir mənbəyi-ürfan oluram.

Vurmaram bir də daha mən şüəralıqdan dəm,
Niyə dəysin mənə bu barədə min səngi-sitəm,

Haqlıdır gər məni zənn etməsə el əhli-qələm,
Şairəm, çünki budur vəchi mühərrir deyiləm,
Xud əgər kafir isəm, indi müsəlman oluram.

Şer yazmaqlığı dünyada sanırdım hikmət,
Şeri həm öylə bilirdim ki, düri-pürqiymət,
Demə, şairdən edərmiş hamı aləm nifrət,
Çəkmişəm boş yerə şairlik üçün mən zəhmət,
Şair olmaqlığıma indi peşiman oluram.

Şair imiş eləyən milləti aləmdə zəlil,
Şairin yoxdur o qədri, ola doktor, uçitel,
Bizə çox görmə mühərrirləri, ey rəbbi-cəlil,
Bunlar imiş edən icad balon, avtomobil,
Bunlar icad qılan işlərə heyran oluram.

Deyiləm öylə mühərrir ki, qanım həqqü hesab,
Nə də kim, öylə ədibəm, düşünəm rəsmi-hicab,
Arif olsaydım, oğurlarmıdım hər yerdə kitab,
Şair olmaq məni axır edəcək xanə-xərab,
Öz əlimlə niyə mən xanəsi viran oluram?
Şüəralıq rəvişin tərk edib insan oluram.

1916

YATIRAM

Mən də, ay can, nə qədər yatsa müsəlman, yatıram,
Məni dindirmə, qoy asudə, ay oğlan, yatıram.

Adət olmuş bizə çün ruzi-əzəldən yatmaq,
O səbəb sübhü məsa mən dəxi hər an yatıram.

Xızrtək rahinuma olmaram hər gümrahə,
Nuh isəm, aləm ara qopsa da tufan, yatıram.

Qabil övladıyam, Adəm babamın vəchi budur,
Olaram, yatmasam, axırda peşiman, yatıram.

Həşr gər qopsa ayılmam, elə bədxabəm kim,
Hər zaman şamü səhər, vəxt obaşdan yatıram.

Ruzü şəb ağlasa övladi-vətən qəm yemərəm,
Mərdi-xoşbəxtəm özüm xürrəmi-xəndan yatıram.

Etmərəm sakit əgər bir-birin öldürsə əvam,
Çünki yox məndə o qeyrət ki gedim, qan, yatıram.

Qırılıb yoxsul acından yata bilməzsə, nə qəm,
Mən yeyib hər gecə keyf ilə fisincan, yatıram.

Mən haman Qahir idim, xalq mənə tabe idi,
İndi bir kimsə məni bilməyir insan, yatıram.

1916

QOÇU

Bir qoçuydum, çoxdu qabaq hörmətim,
Xalqı döyüb, söymək idi sənətim,
İndi qalıb ürəyimdə həsrətim,
Öldürə bilmirəm, döyə bilmirəm,
Heç kəsi incidib, söyə bilmirəm.

İncidirdim qabaq bənnə, fəhləni,
Gətirmişdim təngə bütün məhləni,
İndi döyüb, söyür hər yetən məni,
Öldürə bilmirəm, döyə bilmirəm,
Heç kəsi incidib, söyə bilmirəm.

O gündən ki, şəhrə düşüb inqilab,
Bu qüssədən bağrım olubdur kabab,
Körpələr də mənə qaytarır cavab,
Öldürə bilmirəm, döyə bilmirəm,
Heç kəsi incidib, söyə bilmirəm.

Əsirdi qonşular gələntək adım,
Bir kişidən yox idi qorxum, zadım,
İndi bəyənmir məni öz arvadım,
Öldürə bilmirəm, döyə bilmirəm,
Heç kəsi incidib, söyə bilmirəm.

Bundan əzəl qoçaqdım Fərhad kimi,
Kəsdirərdim tinləri cəllad kimi.
Girmişəm indi evə arvad kimi.
Öldürə bilmirəm, döyə bilmirəm,
Heç kəsi incidib, söyə bilmirəm.

1921

DÖVRAN BİZİM OLDU

Mahi-rəmazandır, yenə dövran bizim oldu,
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu.

Bu ayda olur mollaların keyf zamanı,
Aylarda mübarək eləyib həqq rəmazanı.
Qoy biz yeyək, acların acından çıxa canı,
İndi ki müsəmma və fisincan bizim oldu.
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu.

Gəldi rəmazan, ruhumuzu eylədi tazə,
Bu vəchlə məşğul idik hər gündə namazə,
Bu on bir ayı həsrət idik nemətü nazə,
Səd şükr, yenə neməti-sübhan bizim oldu,
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu.

Fikri bizi təhqir eləməkdən ürəfanın,
Yəni ki, qalaq qeydinə biz də füqəranın.
Ölsün füqəra, borcu deyildir üləmanın,
Hardan gəlib ol firqeyi-neyran bizim oldu?
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu.

İslamidə var gərçi min illərlə bu adət,
İndi ki bilən yox, nədən olduğu ibarət.
Jurnalçı min il yazsa, ayılmaz bu cəmaət,
Sür, Molla Zaman, atını, meydan bizim oldu,
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu.

Hər tövr onu biz qurarıq püxtəvü xamə,
Şeytan da bizimtək sala bilməz onu damə,
Təfsir eləmək sureyi-Quranı əvamə.
Hiylə toru qurmaq ona əlan bizim oldu,
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu.

1924

ACI GÜLÜŞLƏR

Bu mollanın qəribə təqvası var,
Hansı güruhun belə mollası var?!

Bu molla bir mömünü dindardır,
Şöhrəti var, falçıdır, cindardır,
Təbabət elmində də huşyardır,
Bunda, həqiqət, elm dəryası var,
Hansı güruhun belə mollası var?!

Falçılığı qalsın hələ bir yana,
Elmi-təbabətdə yetib Loğmana.
Gündə naxoşlar düzülür yan-yana,
Xəstəyə əntiqə müdərası var,
Hansı güruhun belə mollası var?!

İstəməz heç kimsənənin bir zadın,
Əgərçi rüsvay eləyibdir adın.
Gündə gəlir yanına yüz cür qadın,
Nə "minnəti", nə də "təmennası" var,
Hansı güruhun belə mollası var?!

Molla ki, var adi bir insan deyil,
Həm də nə iş tutsa ona man deyil.
Mollaya eyb eyləmək asan deyil,
Bilən bilər, bunun nə mənası var!
Hansı güruhun belə mollası var?!

Bir də odur əsli müsəlmani-pak,
Əlləşə gündüz-gecəni hövlnak.
İşlədiyin mollaya versə nə bak.
Onun bu dünyası, həm üqbası var,
Hansı güruhun belə mollası var?!

1924

DƏLLALLARIN HİYLƏSİ

Dəllallar ilə hiylədə şeytan da bacarmaz!
Şeytan nəçidir, cin nədi, xortdan da bacarmaz!

Bir kəndçi ola xam, gələ at almağa nagah,
Vay halına, dəllallar işindən ola agah,
Bir növi soyarlar onu, göstərməsin Allah!..
Qəssablığı bunlar kimi şeytan da bacarmaz,
Şeytan nəçidir, cin nədi, xortdan da bacarmaz!

Aldatmaq olur kəndlini təriflə xəyalı!
"Bax gör necə xoş kakili vardır, necə yalı.
Hərçənd ki, bu, atdı, vəli yoxdu misalı,
Var bir yerişi ki, onu ceyran da bacarmaz,
Şeytan nəçidir, cin nədi, xortdan da bacarmaz!"

Min hiylə ilə ata onu raqib edərlər,
Axır ki, neçə işvə ilə talib edərlər,
Biçarəni bir kəmli ata sahib edərlər,
Bir çarə o biçarəyə Loğman da bacarmaz,
Şeytan nəçidir, cin nədi, xortdan da bacarmaz!

Var bir çoxu qalmaz orucundan, namazından,
Baxsan neçə yüz ev yıxıb ömründə azından,
Tərk etməyəcək canı çıxınca boğazından,
Quldurluğu dəllal kimi aslan da bacarmaz,
Şeytan nəçidir, cin nədi, xortdan da bacarmaz!

1924

SÜR DƏRƏYƏ

Molla göstərdiyi yolla yeri, dönmə geriyə,
Ağa ki, əmr elədi: sür dərəyə, sür dərəyə!

Desə ərbabi-qələm, cəhd qıl, elm eylə hüsul,
Yəni bielm olan əbnayi-bəşərdən nə vüsul?
Baxma onlar nə desə, molla sözün eylə qəbul,
Hər zaman olsa, gərək mollanın əmri yeriyə,
Ağa ki, əmr elədi: sür dərəyə, sür dərəyə!

Bu gün asayişinə baxsan əgər İranın,
Eylə bir iş tapa bilməzsən ola biqanun.
Çünki hökmü o məkanda yeriyir mollanın,
Bir nəfər molla böyükdür neçə min həmşəriyə,
Ağa ki, əmr elədi: sür dərəyə, sür dərəyə!

Görünür çünki məhərrəm ayının asarı,
İndidən biz para cəm etməliyik elcarı.
Müftəxor mollaların açılacaq bazarı,
Hərə bir növi mətahin satacaq müştəriyə,
Ağa ki, əmr elədi: sür dərəyə, sür dərəyə!

Gərçi İran şəbikərdanlarının hörməti var,
Şəbixanlıqda bizim kor Həbibin şöhrəti var,
Hansı üzlə bu cənabə oların nisbəti var?
İsmü rəsmi yetişib Gərmoriyə, Həştəriyə,
Ağa ki, əmr elədi: sür dərəyə, sür dərəyə!

1924

MƏNASINA BAX!

Aman, ay Molla[1], bu şeri oxu, mənasına bax!
Sərfinə, nəhvinə, imlasına, inşasına bax!

Şer yazmaqlığa, hərçənd ki, yoxdur həvəsim,
Demirəm şair olum, çulğasın ətrafı səsim,
Leyk var bir neçə söz yazmağa öz interesim,
Oxu başdan-başa sən, gizli müəmmasına bax!
Aman, ay Molla, bu şeri oxu, mənasına bax!

Düşməmişdir parapet səmtinə bir yol güzərin,
Yetməmiş ordakı maklerlərə bir dəm nəzərin.
Bir çoxu dəlla! olubdu, niyə yoxdur xəbərin?
Bircə gəl onların etdikləri sövdasına bax!
Aman, ay Molla, bu şeri oxu, mənasına bax!

Yorulur, işləyir axşama kimi bir əmələ,
Dincin almaqlığa bir dəm ki salır fürsət ələ,
Görəcək əyləşən skamyada dəllaldır hələ.
İşçinin bir yer üçün boş, quru xülyasına bax!
Aman, ay Molla, bu şeri oxu, mənasına bax!

Hələ vardır neçəsi dinçi qoyubdur adını,
Başlı-başına buraxıb evdəki öz arvadını,
Şübhəsizdir, deyəcək, görsə gözəl yad qadını:
– Bircə bu madmazelin surətü simasına bax! –
Aman, ay Molla, bu şeri oxu, mənasına bax!

1925

DƏRVİŞ

Ay Molla, bizə mərhəmətinlə nəzər eylə,
Yaz jurnala elanımı, xalqa xəbər eylə.

Dərvişlərimiz keçmişə nisbət azalıbdır,
Tən yarı gedib rəhmətə, indi nə qalıbdır?
Lakin bu qalanlar da, görürsən, qocalıbdır,
Lütfünlə yenə ölkəmizi bəxtəvər eylə,
Yaz jurnala elanımı, xalqa xəbər eylə.

İstərsən əgər, el eləsin mollaya rəğbət,
Biz onlara, onlar da bizə etməyə lənət,
Lazımdır edək onları dərvişliyə dəvət.
Qurbanın olum, tez bu işi birtəhər eylə,
Yaz jurnala elanımı, xalqa xəbər eylə.

Dərvişsiz olan məmləkətin ləzzəti olmaz,
Hərgiz mədəniləşməz, onun qiyməti olmaz.
Elmi, ədəbi, məktəbi, ünsiyyəti olmaz,
Bu yolda çalış, Molla dayı, bir hünər eylə.
Yaz jurnala elanımı, xalqa xəbər eylə.

Dönnəm başına, durma di, min əyriplanə,
Əvvəlcə gəzib Qafqazı, get sonra İranə,
Bu məsələni söylə cəmi mərsiyəxanə,
Səlyanə də, qurban sənə, dön bir güzər eylə,
Yaz jurnala elanımı, xalqa xəbər eylə.

1925

ŞEYXƏ BİR İMDAD

Əfsus ki, yoxdur yetişən dadına şeyxin,
Get məscidə, bax nalövü fəryadına şeyxin.

Vardır bu mərəz şeyxidə, derlər ki, yaşından,
Hər yerdə yeyib doymasa gər ehsan aşından,
Hər il rəmazan ayı çıxır əqli başından,
Allah özü rəhm eyləsin övladına şeyxin,
Əfsus ki, yoxdur yetişən dadına şeyxin.

[1] "Molla Nəsrəddin" jurnalı nəzərdə tutulur

Hətta belə derlər ki, bu il keçmişə nisbət,
Şeyxin mərəzi etmədədir get-gedə şiddət,
Gər böylə qalıb olmasa biçarəyə səhhət,
Bu xəstəlik eylər əsər əhvalına şeyxin,
Əfsus ki, yoxdur yetişən dadına şeyxin.

Verməz sözə minbərdə nəhayət, yerə düşməz,
Ta yatmasa məsciddə cəmaət, yerə düşməz,
Ağzından onun qüslü təharət yerə düşməz,
Hərdəm elə xoş löğmə düşür yadına şeyxin,
Əfsus ki, yoxdur yetişən dadına şeyxin.

Heç molla bunun kimi deyil hər işə zirək,
Çoxlar həsəd eylər ki, nədən şeyx özü bir tək,
Guya götürüb şəhridə məscidləri podrək,
Xalis quru böhtan yaşayır adına şeyxin,
Əfsus ki, yoxdur yetişən dadına şeyxin.

Mahi-rəmazan şeyxə edib xeylicə təsir,
Bilmir özünü, bəs ki, tapır haləti təğyir.
Bazarda etmiş neçəsin boş yerə təhqir,
Onlar da söyüb axırı hər zadına şeyxin,
Get məscidə, bax nalәvü fəryadına şeyxin.

1925

TƏXMİS-MƏZHƏKƏ

Ey sənəmi-türreyi-pürpiç tab,
Kimsədə yox zərrəcə hicrində tab.
Həsrəti-didarınadır şeyxü şab,
"Sübh salıb mahi-ruxindən niqab,
Çıx ki tamaşaya, çıxa afitab".

Mən kimi min tüklüqulaq, heyvərə
Sahib ikən dövlətü simü zərə,
Talibdir sən kimi siminbərə,

"Rişteyi-canım yetər, et bir kərə,
Salma səri-zülfi-səmənsayə tab".

Aşiqini qoyma qəmindən yana,
Döndü fəraqında könül büryana.
Qanmaz inanma, gözəlim, söz qana,
"Məst çıxıb, salma nəzər hər yana,
Görmə rəva kim, ola aləm xərab".

Eyləmə nifrət məni-müştaqidən,
Keçmişəm eşqində oğul-şaqidən.
Rəhm elə, qaldır məni torpaqidən,
"Kəsmə nəzər canibi-üşşaqidən,
Naleyi-dilsuzidən et ictinab".

Dövr eləsə min sənə çərxi-fələk,
Məh görəməz sən kimi biribüşəkk.
Hanı bəşərdə sənə bənzər mələk?
"Gecələr əncüm sayıram sübhədək,
Ey şəbi-hicrin mənə yovməl-hesab".

Rövzeyi-kuyində sənin hər zaman,
Bülbüli-şeyda kimi qıllam fəğan.
Xoşdu ki, eşqində olam bağrıqan,
"Duzəxə girməz sitəmindən yanan,
Qabili-cənnət deyil əhli-əzab".

Tut nəzərində, nola, bir dəm məni,
Lütflə qıl vəslinə məhrəm məni,
Zənn eləmə Əhmədi-biqəm məni,
"Saldı damaqdan, qəmi-aləm məni,
Ver mənə qəm dəfinə, saqi, şərab".

Baxma bu kaftar əmələin yalinə,
Düşsə sənintək xanımın dalinə.
Gəl evə, bax dövlətinə, malinə,
"Rəhm qıl üftadələrin halinə,
Hiç gərəkməzmi sənə bir səvab?!"

Xahişin pul isə, məlalın nədir?
Bir neçə dəqiqə vüsalın nədir?
Mənə də tez söylə, xəyalın nədir?
"Yar sual etsə ki, halın nədir?
Xəstə Füzuli, nə verərsən cavab?!"

1925

MİNACAT

Ey mollaların sərvətü samanı orucluq,
Fəxri, şərəfi, mənbəyi-ehsanı orucluq!

Tez gəl, yetiş, öldürdü bizi həsrətin, ey mah,
Bir bizdən ötrü həq səni xəlq eylədi, billah.
Bilməz də sənin qədrini bu ümməti-gümrah,
Qurban sənə bu şeyx əminin canı, orucluq.

Hümmət yağıyor Maştağaya indi sərasər,
Qalmaz toz içində dəxi mehrab ilə minbər,
Quldur qoçu, cibgir, beçəbaz, dinçi iyidlər
Təmir qılır məscidi-viranı, orucluq.

Çıx parla, yetər, aç üzünü, ey məhi-taban,
Əmmaməli, üryan lotular açmağa meydan.
Dikmiş sənə həsrət gözünü silsiləcünban,
Ta xalqı soyub doldura həmyanı, orucluq.

Verrəm qəsəm öz şəninə xəllaqi-cahanı,
Alsın nəzərə mollaları, mərsiyəxanı,
Bir il eləsin, kaş bu bir ay rəmazanı,
Tutsun bütün hər ölkəni, hər yanı orucluq!

1925

GÖZÜN AYDIN

Qəflətdən ayıl, Molla Süleyman, gözün aydın,
Çatmış ramazan, yatma, ay oğlan, gözün aydın!

Dur xəncərini sazla, yetər, eyləmə qəflət,
Qarət ayı gəldi, bizə çatdı yenə növbət.
Məscid döşənib, hazır olub məclisi-işrət,
Tufan qoparır dudeyi-qəlyan, gözün aydın!

Əmmaməni qoy başına, gey tirməvü şali,
Çiynində əba, əldə əsayi-mütəali,
Yax rəngi-həna, "çərni" elə saqqalı, yali,
Sür atını, çatdı sənə meydan, gözün aydın!

Bu ayda bütün yallanacaq köhnə köpəklər,
Baqqal, qoçu, həp xalqı soyanlar – bığıbəylər.
Ehsan edəcəklər sənə min dürlü yeməklər,
Qarnın dolacaq dolma, fisincan, gözün aydın!

Gündüzləri düş meydana, hambalları yanla,
İftarə çağır məscidə, et möizə, danla,
Çıx çərxi-xoruztək gecələr damlara, banla,
Bidar elə xalqı hər obaşdan, gözün aydın!

1925

ŞURADAN ƏLİM ÇIXDI...

Şuradan əlim çıxdı, lap oldum evi bərbad,
Faş etdi bütün sirrimi mürtəd qızı arvad.

Sədr olmağıma razı idi, məncə, xəlayiq,
Məndən bu sayaq yox idi qəti-əlayiq.
Ancaq məni arvad bu işə görmədi layiq,
Nöqsanımı bir-bir üzümə eylədi tedad,
Faş etdi bütün sirrimi mürtəd qızı arvad.

Alçaq bir adam olduğumu anladı hər kəs,
İş başına keçməkliyimə vermədilər səs.
Birdən-birə tapdandı "hüququm", nə edim bəs?
Yüz dadü fəğan eyləsəm, olmaz mənə imdad,
Faş etdi bütün sirrimi mürtəd qızı arvad.

Arvaddan əgər etməsə hər bir kişi nifrət,
Hərgiz deyil o həzrəti peyğəmbərə ümmət.
Arvaddan həmişə həzər etmiş özü həzrət,
Var naqisi-əql olmağına ayələr inşad,
Faş etdi bütün sirrimi mürtəd qızı arvad.

Gəldim evə ondan sora seçgi qurtarandək,
Aldım əlimə saçlarını əfi ilantək.
Vurdum o qədər baş-gözünə qıllı qabantək,
Fəryadına kənd əhli gəlib eylədi imdad,
Faş etdi bütün sirrimi mürtəd qızı arvad.

1925

GƏLİB

Dinçilər, hazır olun, bir qoca ovbaş gəlib,
Bütün əmmaməli meymunlara yoldaş gəlib.

Eyləmiş Culfa yoluyla neçə min hüri baqac,
Rövzə yarmarkasına verməyə onlarla rəvac.
Çox ucuz qiymət ilə eyləyəcəkdir hərrac,
Bol görüb müştərisin etməyə daşbaş gəlib,
Dinçilər, hazır olun, bir qoca ovbaş gəlib.

Olmuş "ənkəhtü vəzəvvəctü" dilində əzbər,
Qız verir, siğə oxur, falə baxır şamü səhər.
Oxuyur minbərin üstündə "Rəhab"ü "Şüştər",
"Şur" ilə etməyə arvadlara göz-qaş gəlib,
Dinçilər, hazır olun, bir qoca ovbaş gəlib.

Açmış ol həzrəti şəhvət yenicə siğəxana,
Mərhəba, böylə vücuda, beləcə rövzəxana.
Çaşmayın müştərilər, getməyəsiz başqa yana,
Adresin yaxşı bilin ki, təzə əyyaş gəlib,
Dinçilər, hazır olun, bir qoca ovbaş gəlib.

Yaxşı huriləri var, qönçədəhən, qıssa tuman,
Dikdaban tufli ayağında, üzündə kirşan.
Hamı əntiqəfiruşdur, hamısı yaşda cavan,
Eləsi var ki, hələ olmayıb on yaş, gəlib,
Dinçilər, hazır olun, bir qoca ovbaş gəlib.

1925

HÜRİYYƏTİ-NİSVAN

Keçməz işə bu əsrdə hürriyyəti-nisvan,
Qan bir kərə, söz müxtəsər: arvad deyil insan!

Arvad gərək heyvan kimi çöldə otarılsın,
Gördükdə ərin vahimədən bağrı yarılsın.
Hər gün döyülüb baş-gözü dəsmalla sarılsın,
Tədbirinə doktor da qala acizü heyran.
Qan bir kərə, söz müxtəsər: arvad deyil insan!

Var bir neçə dinsiz kişi, bilməz nədi qeyrət,
Arvadlar edir bağçada, bulvarda səyahət.
Amma bizə çatmış belə bir hökmi-şəriət,
Arvad gərək evdə otura hali pərişan,
Qan bir kərə, söz müxtəsər: arvad deyil insan!

Arvad nədir öz həqqını dünyada düşünsün,
Yox, bir də gəlib öz ərinin boynuna minsin.
Əz qol-qıçını, həddi nədir, bir kərə dinsin,
Bu bidəti tərk eyləməz heç pak müsəlman,
Qan bir kərə, söz müxtəsər: arvad deyil insan!

Hər yerdə qadın zəhmətinin həqqi kötəkdir,
Sınmaz dəyənək, arvad üçün şanlı bəzəkdir.
Düz söz də desə, baxma, işi məkrü kələkdir,
Yar baş-gözünü, eylə onu qanına qəltan,
Qan bir kərə, söz müxtəsər: arvad deyil insan!

PƏH-PƏH

Pəh-pəh, Bakı dönmüş necə gör, xuldi-bərinə,
çıx eylə səyahət.
Ac gözlərini, eylə nəzər dövri-bərinə,
canın ola rahət.

Hər kuçədə bir məclisi-meyxanə açılmış,
əhsən, bu məkanə!
Ovbaşların şöhrəti dünyaya saçılmış,
gəldim dəxi canə.

Hər tində görürsən ki, valaylar xuliqanlar,
əxlaqı yamanlar,
Növrəstə xanım qızlara daim dolaşanlar,
nahəq dalaşanlar.

Bəzi siyirib tutmuş ələ qanlı bıçağı,
vurmaq dilər adəm.
Bozi o qədər içmiş aşıb başdan ayağı,
nifrət qılır aləm.

Hər yanda təzə yaxşı qumarxanə olub saz,
qarətgah ocağı.
Onlar hamısı dopdolu quşbazla qumarbaz
vəhşilər otağı.

Hər ləhzə görürsən ki, olur mərəkə peyda,
başlandı dalaşma.
Bəzi söyüşür, bəzi edir yox yerə dəva,
onlara yanaşma.

Vardır aşağı hissədə çox nazlı madamlar,
min işvəli canan.
Kastumlu, kraxmallı, bığıburma adamlar,
paltarları əlvan.

Bu hissəyə hər ləhzə "Kommunxoz" edir imdad,
onlar ola rahət.
Onlar da gəzib seyr eləyir bulvarı dilşad,
çəkməzlər əziyyət.

Şəhrin yuxarı çastına var, eylə tamaşa,
diqqət yetir hər an,
Cəmdək qoxusu, mal başı hər tində mühəyya,
nifrət qılır insan.

At dırnağı, tazı ölüsü palçığa batmış,
həm yolları bərbad.
Bilmərrə "Kommunxoz" oranın daşını atmış,
etməz nə səbəb yad?

Çünki orada ömr sürür işçi, əkinçi,
paltarları yırtıq.
Kankənçi, dəmirçi, pinəçi, köylü, dilənçi:
üz-gözləri palçıq.

İşlərsə tramvay yerinə bir neçə furqon,
qəm çəkmə dayan, dur.
Orda yaşayanlar gərək olsun da cigərxun,
dillənmə amandır,
Bu sirri-nihandır.
Yazma bunu, Mülhid,[1]
Kəndinə ziyandır!

1925

İNŞAALLAH

Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah,
Oxuyub xalqımız insan olar, inşaallah!

[1] "Mülhid" Həsən Səyyarın gizli imzasıdır

Yenə var köhnə üsul ilə bu gün dərs oxudan,
Doymamış xəlfələri gör bu min illik yuxudan,
Bu işə yaxşı deyən var Qarabağdan, Nuxudan,
Köhnə məktəbləri dükkan olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Çox da hər yerdə qumarxanələr olmuş icad,
Xalq içində törədir min cürə hər gündə fəsad.
Ayıl, ay bəxtəvər oğlu, bu deyildir irad,
Aqibət bu işə saman olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Necə qanmaz kişilər var, aparıb zəhləmizi
Ki, nə var oğru, siqan qarət edir məhləmizi.
Oğruyurlar gecə lampoçkamızı, vedrəmizi,
Hələ onsuz da çırağban olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Qalmışam matü məəttəl o raboçi Həsənə,
Poçtu soymaq sözünü söyləyir hər gündə mənə.
Bir deyən yox buna, axmaq kişi, axır sənə nə,
Qeybdən dərdinə dərman olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Tutular dəhnəsi, axmaz yerə yeksan suların,
Xeyr olar aqibəti fikrlərin, duyğuların.
İşi bir yanə yetər mirzələrin, mollaların,
Sarığı başına qalxan olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Mollalar gərçi edir işçini daim isfal,
Haqqı öz nəfi üçün eyləyir hər yan pamal.
Boğazından yapışar bir gün onun işçi Cəlal.
Özü axırda peşiman olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Yazıb hər gündə qumarbazı, sataşsaq qoçuyə,
Qorxusundan oların çıxmaq olarmı küçəyə?

Çizkarlar bizi öldürtdürəcək heç neçəyə.
Yerimiz rövzeyi-rizvan olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

Gəldi gül fəsli, tükəndi dəxi əyyami-xəzan,
Çıxacaq bulvara seyr etməyə həp yaxşı-yaman.
Üzü kirşanlı madamlar dolacaqdır hər yan,
Hər tərəf büsbütün əlvan olar, inşaallah,
Ölkəmiz mərkəzi-ürfan olar, inşaallah!

1925

ÇADRA

Ey mənim munisi-qəlbi-nigaranım, çadra!
Səni tərk eyləmərəm, çıxsa da canım, çadra!

Qanmıram heç, nədi hürriyyəti-nisvan, nə demək,
Başaçıq, qıssa tuman, zülfü pərişan, nə demək!
Kurs, klub, əl işi, zəhmət nə demək, can nə demək?
On beş arşın güllü çitdəndi tumanım, çadra!

Mən gərək evdə belə çadralanıb, lap bürünüm,
Bu nə sözdür, neçə nəməhrəmə birdən görünüm.
Nə qədər var nəfəsim, sənlə gərəkdir sürünüm,
Qalmaya çöldə gərək kirli dabanım, çadra!

Səni hər dinsiz, imansız atacaq, qoy atsın,
Ar, namusunu əsrə sataçaq, qoy satsın.
Gedərək kursa günaha batacaq, qoy batsın,
Olmasın tək mənim üqbada ziyanım, çadra!

Şeyx edibdir mənə təfsir hicab ayəsini,
Cameyi-şəridəki rəncü əzab ayəsini.
Tanrı kəm etməsin üstündən onun sayəsini,
Ona qurban ola min çadralı xanım, çadra!

1929

RÖYASI AXUNDUN

Təsir eləyib millətə röyası axundun,
Xülyası, müəmması, təmannası axundun.

Molla dayı, təbirini yaz, gör neçə röya,
Söylə nə gözəl şənü şərəf rütbeyi-ülya.
Düzlükdə inan, şəkk eləmə bu işə əsla,
Bu möcüzəsi, bu yodi-beyzası axundun,
Lap cilvələnir nur ilə siması axundun.

Bir həftə qabaq məscidə verdikdə səliqə,
Saət ikiyə qalmış ikən yeddi dəqiqə.
Biçarə namaz üstə gedir qəşşi-əmiqə,
Bu növ keçir dövreyi-sutkası axundun,
Bihuş düşür peykəri-rənası axundun.

Guya ki, görünmüş gözünə özgə bir aləm,
Keçmiş üləmalar hamısı orda müəmməm.
İclas açılır, məsələsi mahi-məhərrəm,
Olmuş orası məscidül-Əqzası axundun,
Mövlasına var, gör necə ixlası axundun.

Gördükcə axundu çağırır Həzrəti Fazil,
Mandatın alıb izni-duxuli olur hasil.
İclasda təhlil olunur xeyli məsail,
Axırda çıxır bir belə fitvası axundun,
Olsun bu ili yerdə komandası axundun.

Hər nəf olur-olsun, verə bu il işə rövnəq,
Zahirdəmi, batində çıxa minbərə bilhəq.
Bu növi ola məqsədinə, bəlkə, müvəffəq,
Yəni dola bu fənd ilə torbası axundun,
Yoxdandı ki, naziklənib ortası axundun!

Molla dayı, sən də oxu bu möcüzə səlvat,
Qarələrimiz eyləsin hər yerdə minacat.

Düşsün başa bu məsələni hər kişi, arvad,
Dolması, çığırtması, bozartması axundun,
Vodkası, zakuskası, mürabbası axundun.

1929

AĞAM CANİ

Üzümdə zahir etsəm nuri-imani, ağam cani,
Düşürrəm ərşi-əladən Məsihani, ağam cani.

Əyər nifrin edərsəm sidq ilə künci-ibadətdə,
Edərsəm vird əsmai-üzami bircə saətdə.
Yıxıb birdəfəlik heç qoymaram, dəyyar bu kənddə,
Nə bir mürtəd qalar, nə babi, nə dəhri, nə nəsrani,
Hamısın eylərəm bir anda mən fani, ağam cani.

Bu təsiri-nəfəs kim, məndə vardır, yoxdu İsadə,
Nə Davudü Şüeyb, Xızr, İbrahim, Musadə,
Çatıbdır qırxa istajım ibadət xarüqüladə,
Fəzilət mədəni Səlmani-əsrəm, hüccəti-sani,
Bəha məndən alıbdır dərsi-ruhani, ağam cani.

Yəqin olmaz işə ol söyləsəm, filfövr oldurram,
Təmamən yer üzün bir anda cin ilə doldurram.
"Cəhadi-əkbər"ə fitva verib, məxluqi qırdırram.
Xüsusən çadrasın tərk eyləyən əfradi-nisvani,
Çevirrəm başlarına tərs dəyirmani, ağam cani.

Əyər bir ayətəl-kürsi düasın istiqamətlə
Çıxartsam qalibindən hərfi-hərfi ilə, qəraətlə.
Üfürsəm dalbadal kafirlərə böqzi-ədavətlə,
Amandır, Molla dayı, ip gətir bağla bu heyvani
Kəramət sahibi, boynuyoğun quli-biyabani, ağam cani.

1929

HACI NEMƏT KİŞİ

Gözlərin aydın olsun, ay Hacı Nemət kişi!
Sən daha bundan belə eyləmə xiffət, kişi!

Düşməyəcəksən, inan, bir daha yoxsulluğa,
Çıxardı tale səni dar günündə bolluğa.
Eşitdim oğlun girib kopratívdə qulluğa,
Aç cibinin ağzını, eyləmə qəflət, kişi!
Gözlərin aydın olsun, ay Hacı Nemət kişi!

Getdiyin Məkkə haqqı, gen-bol olar daşbaşın,
Müftədi bundan belə evdə aşın, bozbaşın.
Həm sən özün yeyərsən, həm də qohum-qardaşın.
Ölüncə heç bir şeyə qalmazsan həsrət, kişi!
Gözlərin aydın olsun, ay Hacı Nemət kişi!

Köhnə bir alverçisən, girmisən dondan-dona,
Oğurluğun, bicliyin fəndini öyrət ona,
Fürsəti fövt eyləmə, qoyma bu gündən sona,
Gərçi qəbul etməsə döy, elə töhmət, kişi!
Gözlərin aydın olsun, ay Hacı Nemət kişi!

Bax, səni aldatmasın bu küçə baqqalları,
Yığ Quba meydanından bir yerə dəllalları,
Sat birə-beş qiymətə gizlədiyin malları.
Boş yerə öz ruhuna vermə oziyyət, kişi!
Gözlərin aydın olsun, ay Hacı Nemət kişi!

Bu sirri xalq içində salma, amandır, səsə,
Şayəd üstü açılsa, bəlli olsa bir kəsə;
Fikr eləmə, salınsa beş-altı il məhbəsə,
Bir az da bu işdə ver sən ona cürət, kişi!
Xalq oxuyar namına öləndə rəhmət, kişi!
Saqqalı qıpqırmızı, bamәzə söhbət kişi!

Ay Hacı Nemət kişi,
Eyləmə qəflət kişi!
Arifə bir işarə
Edər kifayət, kişi!

1929

İKİ MOLLA

Molla Həsən, niyyətinə mərhəba,
İş düzələr, deyirdin bu gün, sabah.
Qoy yenə əmmamə, geyin bir əba,
Hər yerə çatdıqda elə lovğalıq,
Mindi qədim şöhrətinə mollalıq.

Əyri otur, doğru cavab ver mənə,
Tutaq ki, əmmaməni qoydun yenə.
Kim baxacaq indi, ay əbləh, sənə?
Molladan aləmin gedir zəhləsi,
Onda da əsrin gözaçıq fəhləsi.

Məsələ aydındı bu gün hər kəsə,
Biz gərək hər yerdə verək səs-səsə.
Qaldı öz əlmizdə məsçid, mədrəsə,
İzn verib bizə konstitutsiyə,
Batmayacaq molla qəmə, qüssəyə.

Gördüyümüz kəndli, fəhlə oyandı,
Bizdə olan fəndi, hiyləni qandı.
Allahı da bunlar axırda dandı,
Dini kökündən qoparıb atdılar,
Məscidi minbəmə vurub qatdılar.

Mollanı yoxdursa görən gözləri,
İndi neçin dəvət edir özləri.
Xalq içinə yayma bu cür sözləri,
Tutmadılar, qəm yemə, hörmətmizi,
Özləri çəkdi yenə minnətmizi.

Korsan, həqiqəti görürsən məyər?
Kolxozu insafla düşünsək əyər,
Tərifinə onda bilərsən, dəyər.
Kütlə gözündən utanıb salmasan,
Zurnanı hər yerdə gedib çalmasan.

Kolxoza sədrdir əmoğlum Bəşir,
Mənimlə xəlvətdə o da əlləşir.
Hər yerə çatdıqda salır vay, həşir,
Evimizi, axır ki, bu kolxoz yıxıb,
Var-yoxumuz səlt əlimizdən çıxıb.

A kişi, yanaşma xalqa düşmən kimi,
Asarlar əmmaməni örkən kimi.
Qol-qabırğan sınar kərgədən kimi,
Keçmişə adlanma, o başqa gündü,
Kolxozçular qazdan ayıqdı indi.

Heç insafdı cındırı çıxmış Rza,
Ömründə bir çarıq geyməyib taza.
Bir ay deyil, üzv keçib kolxoza,
İndi navıkat geyinir, boyna bax,
Mollanı da bəyənməyir, oyna bax!

Gör necə erkəksən, ay əclaf kişi,
Mən deyən! Ay pərdələyən keçmişi,
Kim pozacaq bular düzəldən işi?
Zırramasan, çox da keçibdir yaşın,
Siyasət elmindən çıxmayır başın.

Başımda var beş-on nəfər öz tayım,
Yaxın qohumlarım, biboğlum, dayım.
Qırılmışlar az deyil, hansın sayım?
Seçkiyə, hətta seçəcəklər məni,
İndidən eyləyim xətircəm səni.

Düşmə bu xülyaya bu gündən bəri,
Unut o xalqı soyduğun günləri.
Sən kimi sarsaq xərəmöminləri
Tövləyə də qoymayacaqlar, inan,
Get bir iş axtar, özünə gün qazan.

1937

QURBAN BAYRAMI

Bir də görsəydim səni röyadə, qurban bayramı,
Həsrətim qalmazdı bu dünyadə, qurban bayramı!

Həzrəti İbrahimin sənsən ucaldan şöhrətin,
Sən onun artırdın aləmdə cəlalın, dövlətin,
Bir sənə tapşırdı, getdi, biz müsəlman ümmətin,
Olmuşuq irsən sənə dildadə, qurban bayramı!

Göz önündə keçmişim sınmış təkər tək fırlanır,
Sanki əmrimlə yenə kef məclisim hazırlanır,
Tüstü qalxır, dalbadal, şişlik gəlir, manqal yanır,
Gəzdirir məşuqəm əldə badə, qurban bayramı!

İndi də fikrimdədir, bərk içmişəm, kəlləm dolu,
Məclisimdən qovladım bayram günü bir yoxsulu,
Nə kəbab verdim, nə verdim bir qəpik bayram pulu,
Aclığından başladı fəryadə, qurban bayramı!

Məclisimdə curlarım varlıydı, bəy, xan, büsbütün,
Layiqi yoxdu bizə hər yoxsulun, hər bir lütün,
Yüksəlirdik göylərə çıxdıqca manqaldan tütün,
Fəxr edirdim mən sənlə, adə, qurban bayramı!

İndi neylim çevrilib, dünya dəyişmiş sərbəsər,
Var nə qurbandan, nə şişlikdən, nə manqaldan əsər,
Köhnə adətlər pozuldu, mən qocaldım, müxtəsər,
Düşməyir illərcə əsla yadə, qurban bayramı!

1938

VAY DƏDƏ

Dağıldı getdi, vay, dədə, əcəb, cəlalı mollanın,
Hanı o köhnə hörməti, hanı o halı mollanın?

Alardı dolmanın canın, hücum edərdi ehsana,
Əyərdi dizlərin yerə, vurardı od fisincana,
Şişib dönərdi peysəri yonulmamış dəyirmana,
Bilərdi onda qiymətin bütün əhali mollanın,
Hanı o köhnə hörməti, hanı o halı mollanın?

Görəndə əsrin indiki uşaqların canım yanır,
Böyüklər heç, cəhənnəmə, olarla kim maraqlanır?
Nə bir ədəb bilir bular, nə də böyük-kiçik qanır.
Ağarmasın da, neyləsin, yalı, kübalı mollanın,
Hanı o köhnə hörməti, hanı o halı mollanın?

Hanı o kənddə sürdüyüm zamanlarım, gözəl çağım,
Dükanlarım, dəyirmanım, evim, yerim, beş-on bağım?
Alındı var-yoxum bütün, bilindi hər fırıldağım,
Tamam verildi kolxoza halalca malı mollanın,
Hanı o köhnə hörməti, hanı o halı mollanın?

Azından əlli kolxoza bu illəri soxulmuşam,
Birində bircə yol gedib, bir ay müəllim olmuşam,
Qərəz ki, hansı kolxoza yan almışam, qovulmuşam,
Bəlası bir qutarmadı başı bəlalı mollanın,
Hanı o köhnə hörməti, hanı o halı mollanın?

1938

ATA NƏSİHƏTİ

Oğlum, atanın çıxma sözündən, kor olarsan,
Alverdən uzaqlaşma, inan, dilxor olarsan;
Yüngülcə dolan, bərk işə girmə, yorularsan,
Papros satan oğlum!
Sərxoş yatan oğlum!

Bir yerdə gedib işləməyin indi əbəsdir,
Paprosdan, oçerdən nə qazansan bizə bəsdir.
Min müftə tramvaylara, get tinləri kəsdir;
Papros satan oğlum!
Sərxoş yatan oğlum!

Bildirləri alverlə böyük dövlətə çatdın,
Üç ay qışı hey qənd-çay alıb, xəlvəti satdın.
Hərçənd bir az, cüzi gedib həbsdə yatdın,
Papros satan oğlum!
Sərxoş yatan oğlum!

İndi, a balam, az qalıb on beş yaşın olsun,
Bir min gərək hər gündə sənin daşbaşın olsun,
Alverçi gərək əldən, ayaqdan maşın olsun,
Papros satan oğlum!
Sərxoş yatan oğlum!

Şükr allaha, sandıq dolusu qənd, çayın var,
Arşınmalıdan gündə pasajlarda payın var,
Qəm çəkmə, tutulsan, nədi ki, altı ayın var,
Papros satan oğlum!
Sərxoş yatan oğlum!

Get çayxanaya, iç çayı, çək nəşəni hallan,
Dinc durma, sataş xalqa, tramvaylara sallan,
Tez gir cibə, gördün ki, milis var, yerə tullan.
Papros satan oğlum!
Sərxoş yatan oğlum!

Sən keçmişə baxma, atan onda xozeyindi,
Qalsaydı o mal-dövlətim hərgah, birə-mindi,
Dövlət də gedib, mal da gedib, neynəyim indi?
Papros satan oğlum!
Sərxoş yatan oğlum!
İbrət al atandan,
Mamlımatan oğlum!
Ölsün atan, oğlum!
Sərxoş yatan oğlum!

1940

OĞULUN CAVABI

Məni təhrik eləmə alverə, vicdansız ata!
Qəlbsiz, duyğusuz, anlaqsız ata, şansız ata!

Bir mələkdim mən uşağlıqda sən etdin yaramaz,
Tərbiyən oldu mənə təkcə söyüş, şillə, qapaz!
Acımaq bilməzdin əsla halıma bari bir az,
Küçəyə atdın ədalətsiz ata, qansız ata!
Məni təhrik eləmə alverə, vicdansız ata!

Həyanı, üz suyunu – çünki gərəksizdir – at!
Sən, ölüncə bunu tərk etmə, ucuz al, baha sat!
Adətindir... tutularsansa, gedib həbsdə yat!
İşini tut öz əlində yenə "nöqsansız" ata!
Məni təhrik eləmə alverə, vicdansız ata!

Sən də gir bir işə, olləş, namusun varsa oyə!
Ölkədə işsiz adam söylə, dəyər indi nəyə?
Düşəcəksən, bunu bil, ən sonu bir gün tələyə!
Onda dərdin olacaq, anla ki, dərmansız, ata!
Məni təhrik eləmə alverə, vicdansız ata!

"Var-yoxum getdi" deyirsən, bu hərisliksə yetər!
Bir məsəldir bu ki, "El ilə gələn, sellə gedər!"
Qəsdin etməksə məni indi özündən də betər –
Başarar, sanma bunu hər qoca, hər cansız ata!
Məni təhrik eləmə alverə, vicdansız ata!

Mən bugündən gedirəm məktəbə, atdım küçəni –
Gəl daha paprosu, qəndi, çiti də, boşla məni!
Milisə tapşıraram öz əlim, ağzımla səni!
Yetişər – etmə imansız məni, imansız ata!
Qəlbsiz, duyğusuz, anlaqsız ata, şansız ata!
Məni təhrik eləmə alverə, vicdansız ata!

1940

SƏNƏ NƏ?!

– Gecə-gündüz içirəm əhli-mazağam, sənə nə?
Mərifətdən, mədəniyyətdən uzağam, sənə nə!

Nəsihətçi

– A kül olsun gözünə! Oxşama fərsiz dayına,
Baxsana qonşunun oğlu Kərimə – həmtayına!
Sən də get, dərs oxu, düşsün iki min hər ayına,
Xalqımız elmlə, ürfanla gedir çox irəli!
Çünki xulqanlığın heç bir kəsə yoxdur səməri.

Avara

– Nə kitab bilirəm ömrümdə, nə dəftər, nə qələm;
Sərf edəm ömrümü boş bir şeyə, əbləh deyiləm,
Ağlın olsun, yeri get xəftədamağam, sənə nə!
Mərifətdən, mədəniyyətdən uzağam, sənə nə!

Nəsihətçi

– İndi namuslu oğullar çəkilir iş başına,
Hamı kolxozda, zavodlarda dönübdür maşına,
Tarlamız, pambığımız çölləri almış başına;
İşçi, kolxozçu coşur, səyü hünərlə çalışır;
Bunu gördükdə yanır, düşmən içərdən alışır.

Avara

– Hansı mey məclisidir, olmayım orda tamada?
İclasa getdiyim heç gəlməyir ömrümdə yada.
Şayəd, işdirsə, çaşıb bir dəfə getsəm arada,
Onda da qaçmağa tez yüngülayağam, sənə nə?
Mərifətdən, mədəniyyətdən uzağam, sənə nə!

Nəsihətçi

– Bir özün fikr elə, gör, tonbəl adamdan nə çıxar,
Boşla xulqanlığı, axırda bu iş evini yıxar.
Bu bəladan özünü cəhd elə birdibli qutar.
Sən də namusla, şərəflə vətənə xidmət elə,
Aciz olma, bax igid xalqımıza, ibrət elə!

Avara

– Çox da aciz deyiləm, parka tərəf bir gecə gəl!
Sən mənim orda igidliyimə qalarsan mətəl.
Piyvə gec gəlsə bizim stola, sallam cəncəl.
"İnturist"də gecələr müftə qonağam, sənə nə!
Mərifətdən, mədəniyyətdən uzağam, sənə nə!

Nəsihətçi

– Nə nəsihətdən arın var, nə də yalvarmaqdan,
Tövbə et sən mal alıb-satmağı unvermaqdan;
Yorulur gündə milislər səni axtarmaqdan,
İnsan ol, tərk elə bundan sora bu axmaq işi,
Bir qədər də sənə lazımdı sovet pərvərişi.

1940

DƏDƏ, VAY!

Dədə, vay, hey yatıram, bir yuxudan doyammıram,
Bu ağır yatmağımın sirri nədir, duyammıram?

Sanki qızdırmalıyam, baxsan əgər rəngü ruxuma,
Bir putovka götürüb getməli oldum Suxuma,
Gecə olmaz ki, gəlib girməyə Sabir yuxuma,
Çağırır tənəli sözlərlə məni, oyanmıram,
Bu ağır yatmağımın sirri nədir, duyammıram!?

Deyirəm, ey böyük usta, məni salma yadına!
Şuşa şəhrində deyirlər ki, klub var adına,
Belə məlum ki, o layiq deyil istedadına.
Hələ də mən özümə xırda bir ad qoyammıram;
Bu ağır yatmağımın sirri nədir, duyammıram!?

Bu klub bənzəyir, hərçənd, uçulmuş otağa,
Çevrilib qışda inək, yazda qoyun saxlamağa;

Atılıb musiqi alətləri bir künc-bucağa,
Mənə nə, mən ki bu toz-torpağa heç boyanmıram,
Bu ağır yatmağımın sirri nədir, duyammıram!?

Çox adamlar bu klubdan birə-min xeyrə çatır,
Dörd nəfər işçisi var, müftə yeyir, müftə yatır,
Boş adamlar da gəlir axşamacan şeş-beş atır,
Üz ki vardır utanır, heç kəsi qovammıram;
Bu ağır yatmağımın sirri nədir, duyammıram!?

Bilməyirmi bu klub söhbətini raykom özü?
Görməyir səncə, maarifçilərin yoxsa gözü?
Bir də təkrar eləmə, hər yerə çatdın bu sözü.
Danlayıb onların hər gün üzünü yuyammıram!?
Dədə, vay, hey yatıram, bir yuxudan doyammıram!?

1940

HEÇ YOX İMİŞ

Faşistlərin burnun əcəb ovdular,
Qoşunların Moskvadan qovdular.
Şaxtada on minlər ilə dondular,
Çıxdı boşa niyyəti germanların.
Heç yox imiş qeyrəti germanların.

Köhnə şinelçin on adam vururlar,
Kəsdirirlər palanları, dururlar.
Camaatı zorla soyundururlar,
Üryan gəzir milləti germanların,
Heç yox imiş qeyrəti germanların.

Saldatı qorxudan çıxarmır səsin,
Əsir soyuqdan, itirir qüvvəsin.
Əfsərləri geyir qadın yubkasın,
Bəlli oldu qeyrəti germanların,
Çıxdı boşa niyyəti germanların.

Nemeslər cəbhəyə hamı lüt gedir,
Çoxu acından yıxılır, küt gedir...
Paltarından qoşun kimi bit gedir!
Çıxdı boşa niyyəti germanların,
Heç yox imiş qeyrəti germanların.

1942

DƏDƏM VAY!

Hitlerin dedikləri

Olmaz mənə bir çarə, işim yaşdı, dədəm vay!
Düşdüm nə yaman dərdə, dilim çaşdı, dədəm vay!

Zənnim bu idi, hərbi cəsarətlə aparram,
Düşmənləri hər yerdə əzib, bağrını yarram,
Rusiyyəni başdan-başa on gündə qutarram,
Məhv oldum özüm, il də yavuqlaşdı, dədəm vay!
Olmaz mənə bir çarə, işim yaşdı, dədəm vay!

Xalqımda dəxi qalmayıb hərb etməyə taqət,
Məngirləyir hər gün məni minlərcə fəlakət.
İndi yığılıb, saziş edib üç iri dövlət,
Dərdim yenə tüğyan elədi, daşdı, dədəm vay!
Olmaz mənə bir çarə, işim yaşdı, dədəm vay!

Dünyada tapılmaz mənə bənzər qanacaqsız,
Bildir qoşunum batdı, qırıldı yanacaqsız.
Sarsaqlığım, bəs nə zaman siz qanacaqsız?
Beynimdə ölüm qurdları oynaşdı, dədəm vay!
Birdən qulağım batdı, yuxum qaçdı, dədəm vay!
Olmaz mənə bir çarə, işim yaşdı, dədəm vay!

1942

QANMADI HİTLER

Heç yerdə bir insan kimi davranmadı Hitler,
Öz səhvini bir anlamadı, qanmadı Hitler.

Ovsarladı, ən xırda hökumətləri mindi,
Onlar da susub qaldı, nə tərpəndi, nə dindi.
Üç dövlətə qarşı niyə aciz qalıb indi?
Dünyada özündən yekəni sanmadı Hitler,
Öz səhvini bir anlamadı, qanmadı Hitler.

Əvvəlcə, coşub loğalanıb, hürdü bu sərsəm,
Rusiyyəni bir ayda plan çəkdi götürrəm.
İndi tüpürür cəmdəyinə büsbütün aləm,
Bir ildə bütün batdı, yenə qanmadı Hitler,
Heç yerdə bir insan kimi davranmadı Hitler.

Üç güclü hökumət salacaqdır səni girdən;
İngiltərə əvvəl sənə bir çəkdi böyürdən.
Şahinləri üstündə süzürlər mini birdən,
Öz nəslini məhv etdi, yenə qanmadı Hitler,
Heç yerdə bir insan kimi davranmadı Hitler.

Sarsaq keçi tək atdı bir az çör-çöpə buynuz,
Saldı hərəkətdən onu üç düyməli toppuz.
Vardır bu məsəl: "Ölməz ilan, görməsə ulduz".
Bir yol bu fəlakət gününə yanmadı Hitler,
Heç yerdə bir insan kimi davranmadı Hitler

1942

NATAMAM OLDU

Kam almadı Hitler, nə yaman təlxkam oldu.
Minlərcə fırıldaq elədi, natamam oldu.

Keçmişdə əgər vardısa Firon ilə Şəddad,
Rəhmət olara, olmamış onlar belə cəllad,
Dünyanı bu əclaf uşağı eylədi bərbad,
İnsanlara hər yerdə məişət həram oldu,
Kam almadı Hitler, nə yaman təlxkam oldu.

Üç dövlət inan sazişə girdikləri gündən
Bir bomba kimi Hitlerə dəymiş ürəyindən;
Zülmün kəsilər şaxəsi tezliklə kökündən,
Bir gün də bu zalım görəcək, sübhü şam oldu,
Kam almadı Hitler, nə yaman təlxkam oldu.

Hər gün döyülür, loğalığından da dayanmır,
Çox yaxşı bilir, sursatı yoxdur, necə qanmır?
Saldat yorulub, güllə çatışmır, heç utanmır,
Əmlakı dağıldı, nə yaman təlxkam oldu...
Minlərcə fırıldaq elədi natamam oldu!

1942

QUDUZ HİTLERƏ

Ey faşist köpəyi, yırtıcı heyvan,
Sənə xalq ordusu udduracaq qan!
Qudurmuş başını saldın kələyə,
Düşəcək quyruğun bizim tələyə.
Ömrünün sonudur, əcəlin çatıb,
Üz üstə çevrilib taleyin yatıb,
İnsan da həddini bu qədər azar?
Qazdın öz əlinlə özünə məzar.
Kiminlə gəlirsən, gör bir üz-üzə?
Ey zülmət köpəyi, hürmə gündüzə!
Sovetlər yurdudur bizim yurdumuz,
Külünü sovurur Qızıl Ordumuz!
Topundan, tankından qorxumuz yoxdur,
O topdan, tüfəngdən bizdə də çoxdur.
Bizim dinc ölkəni çəkərkən hərbə,
Bir zərbənə qarşı etdik min zərbə.
Qudurub hər yerə alovlar saçdın,
Özün öz başına fəlakət açdın.
Hələ harasıdır, ey qarı düşmən,
Xalqımız qəzəblə deyir: biz vətən
Yolunda hazırıq candan keçməyə,

Alçaq faşistləri qırıb biçməyə.
Bizim partiya tək rəhbərimiz var,
Qalalar fəth edən əsgərimiz var,
Leninin bayrağı əlimizdədir,
Qələbə bizdədir, zəfər bizdədir!

1942

BAŞ TUTMADI

Baş tutmadı hitlerçilərin hiyləsi, rəngi;
Gəl indi düşündür bu dəbəng oğlu dəbəngi.

Bir gör bu şərəfsiz nə qədər şişdi, qudurdu,
Çexlərdə gedib bir yekə sallaqxana qurdu.
Onlar da bunun başçısını qorxmadı, vurdu!
Çıxdı canı bir bombada, tərpənmədi əngi,
Gəl indi düşündür bu dəbəng oğlu dəbəngi.

Bilsin bunu, qoy anlasın Hitler kimi naşı,
İşğal olunan ölkələrin torpağı, daşı
Vulkan kimi bir gün coşacaqdır ona qarşı.
Ellər bu qanın yerdə qoyarmı qala rəngi?
Gəl indi düşündür bu dəbəng oğlu dəbəngi.

Hitlerçilərin dilləri var, gözləri kordu,
Qırdırdı nemes xalqını, haqsız yerə yordu,
Bir toy tutacaq onlara axır Qızıl Ordu.
Tarix özü də qeyd edəcək bir belə çəngi,
Baş tutmadı hitlerçilərin hiyləsi, rəngi,
Gəl indi düşündür bu dəbəng oğlu dəbəngi,

1944

PEŞMANAM İNDİ

Hitler deyir:

Hərb etməyimə it kimi mən peşmanam indi,
Bildirki qəbahətlərimə düşmanam indi.

Hər yerdə döyürdüm döşümə, lovğalanırdım,
Qarşımda duran düşmənimi körpə sanırdım;
Lakin özümü şir kimi dəhşətli tanırdım,
Qorxaq tulayam, böyrü batıq dovşanam indi,
Hərb etməyimə it kimi mən peşmanam indi.

Son vaxta başım cəmdəyim üstündə oturmur;
Əvvəldəki sürətlə də nəbzim daha vurmur.
Sərkərdələrim gündə qaçır, cəbhədə durmur,
Gör bir nə qədər bişərəfəm, bişanam indi;
Hərb etməyimə it kimi mən peşmanam indi.

Hess qaçdı, başın dustağa girməklə qutardı,
Çünki o zamanlarda bir ümmid yeri vardı;
Öz qaçmağımın fikri mənim bağrımı yardı,
Milyonla nemes xalqına mən düşmanam indi,
Hərb etməyimə it kimi mən peşmanam indi.

1944

HİTLERİN

El tüpürür vicdanına Hitlerin,
Qorxu düşübdür canına Hitlerin.

Boynu uzanmış hacıleylək kimi,
İylənib hər bir yeri comdək kimi,
Qarnı şişib un yemiş eşşək kimi,
Bit daraşıb yorğanına Hitlerin,
Qorxu düşübdür canına Hitlerin.

Qapdı lap əvvəldə daşın zorbasın,
Vurub dağıtdılar qol-qabırğasın,
Ölüm yeli tutub qıçın, ombasın,
İt qanı vurulur qanına Hitlerin,
El tüpürür vicdanına Hitlerin.

Zənn eləyir, evində məhbəsdədir,
Əl-ayağı iflic olub, xəstədir,

Bəzi faşistin qulağı səsdədir,
Od vuracaq ehsanına Hitlerin,
El tüpürür vicdanına Hitlerin.

Yaman düşüb Əzrayılın çənginə,
Rəngü ruxu dönüb meyit rənginə,
Yavaş-yavaş ölüm çatıb ənginə,
Adam qoyulmur yanına Hitlerin,
El tüpürür vicdanına Hitlerin.

Bu tülküyə yaman qurublar tələ.
Bu ölməklə qurtarmayır məsələ.
Dayan, görək Berlin alınsın hələ,
Onda baxım tufanına Hitlerin,
El tüpürür vicdanına Hitlerin.

Bizim bu cənnət kimi sakit vətən
Keçdi faşistin əlinə qəflətən,
Gör, necə əclafdı-deyir hər yetən,
Ay tüpürüm vicdanına Hitlerin,
Gəlin baxın tufanına Hitlerin.

1944

HİTLER DEYİR:

Axtarasan bu dünyanı hər tərəf,
Olmaz özümtək hələ bir bişərəf.
Bütün nemes xalqını etdim tələf,
Gör nə qədər bişərəfəm, bişanam,
İt kimi hərb etməyimə peşmanam.

Vururdum əvvəl döşümə bəy kimi,
Lovğalanırdım hacıleylək kimi.
Döyülmüşəm un yemiş eşşək kimi,
Əvvəlindən qanmamışam, heyvanam,
İt kimi hərb etməyimə peşmanam.

Zənn eləyirdim, itidir ülgücüm,
Mən nə bilim, düşmənə batmaz gücüm?
Çıxdı bütün başçılarım nanəcim,
İndi inandıqlarıma düşmanam,
Gör nə qədər bişərəfəm, bişanam.

Pis günümdə yaman qoyuldum lağa,
Qonşularım başlayıblar qaçmağa.
Qoşulmuşam sizin kimi alçağa,
Həm də öz əclaflığıma heyranam.
İt kimi hərb etməyimə peşmanam.

Mussolin də bir az köpəktək hürdü,
Saqqalına bütün dünya tüpürdü.
Sovet bizi yaman sildi, süpürdü,
Qonşularımdan da acam, üryanam,
Gör nə qədər bişərəfəm, bişanam!

1944

EL DEYİR:

Canın çıxsın anlayaydın həddini,
Keçmiyəydin özgənin sərhəddini,
Nə əymisən bic tülkü tək qəddini?
Sənə bu işdə betər olsun gərək.

Çıxdı boşa eylədiyin lovğalıq,
Tullanar, iylənsə başından balıq.
Bomba yağır üstünə min tonnalıq,
Ölkələrin zirzəbər olsun gərək.

Bu günləri görməyirdi kor gözün,
Öz əlinlə xalqını yıxdın özün.
İndi ölürsən, nədir axır sözün?
Vəsiyyətin müxtəsər olsun gərək.

Böylə döyülmüsən, bu azdı hələ,
Bu günlərdə keçər quyruğun ələ.
Sən ölməklə bitməyəcək məsələ,
Qoşunların dərbədər olsun gərək.

1944

İNDİ

Avropada zənn etmə, səyahətdəyəm indi,
Dünya düşünür, mən nə siyasətdəyəm indi.

Gəzməkdə bu Qərb ölkələrin məqsədimiz var,
Aləm bizə nifrət eləyir, etmirik inkar,
Hərb istəyirik, biz deyilik sülhə tərəfdar.
Zahirdə bu yerlərdə sədaqətdəyəm indi,
Dünya düşünür, mən nə siyasətdəyəm indi.

Dollar veririk, qoy təzədən dava uzansın,
Milyonla qırılsın bəşəriyyət, oda yansın.
Tək bir mənim ölkəm bu siyasətdə qazansın.
İnsan qanı tökməklə ticarətdəyəm indi,
Dünya düşünür, mən nə siyasətdəyəm indi.

Olsam da əgər Qərbi komandanlığa təyin,
Zahirdə beş-on alçaq edirsə mənə təhsin.
Batində edir şənimə dünya hamı nifrin.
Min lənətə, hərçənd, ləyaqətdəyəm indi,
Dünya düşünür, mən nə siyasətdəyəm indi.

1944

CEYRANVURANLAR

Ceyranı atıb vurmaq, əgərçi qadağandır,
Ceyran yatağı Mil düzüdür, bir də Muğandır.

Ceyran ovunun aşiqiyəm, çox gözəl ovdur,
Hər kəs ola çöldə, deyər, əntiqə kinodur.
Ceyran qaçır, ardınca maşınlar qovaqovdur,
Bir kimsə soruşmur, bu nə fəryadü fəğandır?
Ceyranı atıb vurma, yasaqdır, qadağandır!

İt vuruşduran, qoç döyüşdürən

Mən düşmürəm itbazlığın əsla həvosindən,
Könlüm açılır həftədə zingilti səsindən.
Xoşdur mənə yüz yol bu bədən tərbiyəsindən,
Qoçlar döyüşür, itlərin əzaları qandır,
Bir kimsə soruşmur, bu nə fəryadü-fəğandır?

Balıq oğruları

Dəryaça olub indi Sarayda yekə şorluq,
Salsın Masazır kəndi badımcan, pamadorluq,
Çəkməz sudan ötrü Bakı bundan sora korluq,
Dəryaça balıqlar yetirir, gəl bunu qandır,
Qoy nəsli çoxalsın, onu tutmaq qadağandır!

1944

ELANIMIZI

Aman, ay Kirpi dayı[1], aç, oxu peymanımızı,
Yaz, bütün hər yerə bildir bizim elanımızı.

Biz əza məclisini on gün əzəldən quranıq,
Həmi dərviş, həmi molla, həmi də rövzəxanıq,
Çox da keçmişdəki toy mütrübü, dünbək vuranıq,
Əfv edər bizcə əza sahibi nöqsanımızı,
Yaz, bütün hər yerə bildir bizim elanımızı.

[1] "Kirpi" jurnalına müraciət edilir

Elə ki, gəldi məhərrəm ayı, saqqal qoyuruq,
Xalqı min hiylə ilə ağladıb, aşkar soyuruq.
Qaramal tək yeyib ehsan əti, sanma doyuruq,
Dolduraq, məqsəd odur, gündə cibişdanımızı,
Yaz, bütün hər yerə bildir bizim elanımızı.

Müftəxor molla bizim tək, demə ki, çox azdır,
Hərə bir nəğmə oxur, kefləri bizdən sazdır,
Köhnə quldur, qoçu, ev oğrusudur, quşbazdır.
Saya salmır biri də molla Süleymanımızı,
Yaz, bütün hər yerə bildir bizim elanımızı.

Bir nəfər yoxsul əgər, düşsə sağalmaz azara,
Onu dəfn etməyə bir molla aparmaz məzara,
Üç gecə, pullu öləndə gedirik pəsməzara,
Satırıq biz pula məzhəbmizi, imanımızı,
Yaz, bütün hər yerə bildir bizim elanımızı.

İncidiblər Xilədə molla Cəhalətqulunu,
Oxudublar, keçən illərdə kəsiblər pulunu,
O "yazıq" da bu "məhərrəmdə" düzəldər çulunu.
Gör nə bihörmət ediblər bu müsəlmanımızı,
Yaz, bütün hər yerə bildir bizim elanımızı.

1944

SABİRABAD PİRİNƏ

Kimdir şəkk eləyən Sabirabad möcüzünə?
Gəlməyibdir belə bir möcüzə dünya üzünə!

Bunu inkar edənin zatı düz olmaz, bic olar,
Əqli, idrakını Allah alar əldən, gic olar,
Gözü görməz, qulağı kar, bədəni iflic olar,
Nə qohum-qonşu, nə öz külfəti baxmaz üzünə,
Gəlməyibdir belə bir möcüzə dünya üzünə!

Neçə ildir, yox idi möcüzənin bir əsəri,
Kim gətirdi Bakıya böylə mübarək xəbəri?
Cumdu tez bir neçə arvadla ora molla Pəri,
O piri yaxşı ziyarət eləyib hər üzünə,
Ağanın türbəti-pakin də çəkib üz-gözünə.

Toz basıbmış nə qədər pəncərələr var, şüşəsin.
Beş nəfər molla gedib məscidi açsın, döşəsin,
Şüşələr əks eləyiblər Ərəbistan meşəsin:
Dəvələr, şirü-pərilər tökülüb yer üzünə,
Salavat səsləri çatmışdır imamın özünə,
Dırmanıb huri, mələklər məscidin gümbəzinə,
Gəlməyibdir belə bir möcüzə dünya üzünə.

Molla Soydullaların bilməli "qiymətlərini",
Orda-burda edirik boş yerə qeybətlərini,
Yazmalı səfhəyi-tarixə bu xidmətlərini,
Sən də çək, Kirpi dayı, jurnala surətlərini.
Əyrilər əyrini görsün, düzü baxsın düzünə,
Gəlməyibdir belə bir möcüzə dünya üzünə.
Küfrdür şəkk eləmək Sabirabad möcüzünə!..

1944

CAN AVTOBUS

Ey Bakı şəhrində hər tərif şayan avtobus!
Sən ki, gəldin, çıxdı yaddan konka, dilcan, avtobus!

Biz dedik çıxmaz rayonlarda, balam, bir əngəlin,
Yolda incitməz, gecikdirməz, bu xəlqi get-gəlin,
Dübbədüzdür öz idarəndə qurulmuş cədvəlin,
Görsənir yüzlərcə səndə eyb-nöqsan, avtobus!
Ey Bakı şəhrində hər tərifəşayan avtobus!

Haqsızıq, bir də məzəmmət eyləsək nahaq səni,
Nəqliyyat nazirliyi baxır, sanır qıvraq səni,

Göndərir hər bir yana böylə sınıq-salxaq səni,
Ey qalıb yolda saatlarla verən can, avtobus!
Ey Bakı şəhrində hər tərifəşayan avtobus!

Çox maşın vardır, sənin tək az deyil qəm-qüssəsi,
Bəs neçin parkın rəisi dinməyir, çıxmır səsi?
Bunca fəryad eyləyir şəhrin naqorni hissəsi,
Gözləmək.. hey bashabas... min ah-fəğan... avtobus!
Ey Bakı şəhrində hər tərifəşayan avtobus!

Gec gəlir bəzən tramvay, aferin bu sürətə,
Gözləmək indi bizimçin daxil olmuş adətə,
Eylə ki, gəldi sürənlər, başlayırlar söhbətə,
Gözlə ta qeybət bitincə, olma giryan, avtobus!
Ey Bakı şəhrində hər tərifəşayan avtobus!

Taksidə şoferdir indi qonşumuz Əbdülqədir,
Altı ay anbardar olmuş, yeddi ay da briqadir.
Beş verəndə, əlli metrə sımsığı yerdən gedir,
"Çox sağ ol" da söyləməz versən də milyon, avtobus!
Ey Bakı şəhrində hər tərifəşayan avtobus!

1944

FIRILDAQÇI QALIBDIR

Dərvişlərimiz keçmişə nisbət azalıbdır,
Tən yarı gedib rəhmətə, yerdə nə qalıbdır?

Dərvişsiz olan məmləkətin şöhrəti olmaz,
Dünyası cəhənnəmlik olar, cənnəti olmaz.
Kövsər suyu üqbadə onun qismәti olmaz,
Dərvişlər ilə qiyməti "Şərq"in ucalıbdır,
Tən yarı gedib rəhmətə, yerdə nə qalıbdır?

Bir çarə deyirlər, buna Kirpi özü qılsın,
İclas eləsin, qoy bu camaat da yığılsın.

Məktəblər açılsın, yeni kadro yaradılsın,
Təcili gərək, dərviş Ələkbər qocalıbdır,
Dərvişlərimiz keçmişə nisbət azalıbdır.

Dərvişlik edir bir neçə dünbəkvuran indi,
Toyxanalara olsa kənardan baxan indi,
Guya ki, gəlib məscidə bir rövzəxan indi,
Bilmir neçə əşar oxuyubdur, nə çalıbdır,
Dərvişlərimiz keçmişə nisbət azalıbdır.

Dərviş gərək əvvəlcə ilan oynadan olsun,
Kəndi, obanı gipnoz edib aldadan olsun.
Yüzlərcə yalan satsın, adam ağladan olsun,
Bir bilməsin heç kəs nə satıbdır, nə alıbdır.
Dərvişlərimiz keçmişə nisbət azalıbdır.

Keçmişdə Muğanlı var idi, Əlqulu vardı,
Çiynində əba, əldə qızıl kəşkülü vardı.
Qarnın otaran molla deyildi, pulu vardı,
Dünyanın elə lozzəti onlarla qurtardı,
Onlar çürüyüb, yarpağı çoxdan saralıbdır,
Mikrobları indi cücərib rişə salıbdır,
Tən yarı gedib rəhmətə, yerdə nə qalıbdır?
Dərvişlərimiz keçmişə nisbət azalıbdır.

1944

QOŞULUB MOLLA HƏSƏN BİR KEŞİŞƏ

Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə,
Qoşulub molla Həsən saqqalı top bir keşişə.

İki mal kəlləsini kim buraxıb bir qazana?
Birisi zəngin əsiri, biri mayil azana.
İstəyirlər bu fırıldaqla olar pul qazana.
Afərinlər belə bir dostluğa, əlbir gedişə,
Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə!

Peyki gördükdə keşiş göydə inanmır tarıya,
İstəmir molla da əmmamə qoyub ağ sarıya.
Belə dinsizliyi bunlar buraxıblar araya
Ki, qoyublar qocaman Allahı da sərzənişə,
Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə!

Zorba bir əmr yazıblar neçə min rövzəxana,
Canına qəsd eləyib, tövlədə xəncər vurana.
Bunların hamını tök zənbilə göndər oyana
Ki, gedib harda əvam varsa ora tez yetişə,
Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə!

Aşnayam molla Fətişlə mən özüm hər üzünə,
İkicə onluq alır bir ölünün hər cüzünə.
Keflənirkən tüpürür falçıların möcüzünə,
Söz deyirsən yenə çatmır qəmiş oğlu qəmişə,
Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə!

Mollalıqda böyük hörmət qazanıb Məşdi Hadı,
Yasini tərsə oxur, çünki boyatdır savadı,
Yayılıbdır kişinin hər yerə şöhrətlə adı,
Məclis heyrətdə qalır onda olan tərpənişə,
Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə!

Bir əfəndi törənib indi deyirlər Qalada,
Mollalıq bir yana qalsın, baxır hər gün fala da,
Qoymayıb müştəri-zad falçı Tükəzban xalada,
Qorxuram molla Həcər də bu kəməndə ilişə,
Mən ölüm, Kirpi dayı, yaxşı fikir ver bu işə!

1944

QIŞA HAZIRLIQ

Keçən il bir gəmi təmirə gəlibdir zavoda,
Düşməyibdir hələ də bir ilin ərzində "xod"a.
Altmış birdə, güman var, düzələ "novı qoda"
Yazığın yelkəni də yox ki, küləklə vuruşa,
Belə hazırlıq olarmı, ay aman, indi qışa?

Bayılın neft verən mədəni, düzdür, çoxdur,
Fərli-başlı ora ki getməyə bir yol yoxdur.
Qış gəlir qarlı nəfəslə, elə bil ki, oxdur.
Kim ola donduracaq, baxmaz o, dosta, tanışa,
Belə hazırlıq olarmı, ay aman, indi qışa?

Bizə ət kombinatından belə bir ərzə gəlib
Ki, soyuqdan üşüyən mal-qaralar qeyzə gəlib.
Bu xəbərdən, görəsən, rəisə heç lərzə gəlib?
Bir adam göndər ora, Kirpi, bizimlə danışa,
Belə hazırlıq olarmı, ay aman, indi qışa?

Zavodun zahirinin bər-bəzəyin soxma gözə,
Sexlərin daxili qış vaxtı dönür lap dənizə.
Sel basır damları, palçıq çıxır hər yerdə dizə,
Neçə dəzgah sinəsi olmuş hədəf qar, yağışa,
Belə hazırlıq olarmı, ay aman, indi qışa?

1944

BƏZİ TİCARƏT İŞÇİLƏRİNƏ

Hər kəs mağazinlərdə ki xidmətdədir, oğlum,
Beş gün oların canları rahətdədir, oğlum!

Alverdə adam var ki, onun öz başı vardır,
Yığmış başına hər nə qohum-qardaşı vardır,
Minlərcə hər ayda kişinin daşbaşı vardır,
Vecsiz bir adam gör nə səadətdədir, oğlum!

Vardır birisi, indi bu sistemdə rəisdir,
Qaçmış neçə yerdən, görüb orda işi pisdir.
Dövlət malına gözləri olduqca hərisdir,
Pul-pul ki deyirlər, o, – ticarətdədir, oğlum!

Pudlarla alıb xırda çörək bəzi şatırlar,
Bir az-maz onun böyrünə ağ un da qatırlar,

Bəzən bişirirlər, onu xəlvətcə satırlar,
Gör indi çörəkxana nə halətdədir, oğlum!

Az-maz tanışıq biz də belə "alver" işiylə,
Faktura rəisin verilir göstərişiylə.
Çoxdur bu sayaq müştəriyə işlədən hiylə,
Bax onlara, sən gör nə xəcalətdədir, oğlum!

Gəzsən mağazinlərdə bular kimləri çoxdur,
Bir xeyli müəllim, hələ var bir neçə doktor.
Zənn etmə, bunun axırı bir əngəli yoxdur,
Hər kim ki bu sistemdə "şərafətdədir", oğlum,
Bir gün görəcəksən ki, qiyamətdədir, oğlum!

1960

ƏNTİQƏ OTAQ

Mən ölüm, gəl bizə bir dəfə qonaq, Kirpi dayı!
Almışıq bir təzə, əntiqə otaq, Kirpi dayı!

Şəxsi evlərdən axırda canımız qurtardı,
Kirayə üstündə böyük mərəkələrmiz vardı,
Xozeyindən də yaman arvadı bədrəftardı,
Toxuyurdu bizə hər gün badalaq, Kirpi dayı!
Mən ölüm, gəl bizə bir dəfə qonaq, Kirpi dayı!

Biz yeni ev alanı düz iki aydan çoxdur,
İndi mənzil cəhətindən gözümüz lap toxdur.
Amma, əfsus... burada eylə rahatlıq yoxdur.
Düzü heç gözləməyirdik bu sayaq, Kirpi dayı!
Mən ölüm, gəl bizə bir dəfə qonaq, Kirpi dayı!

Otağın iç qatı dönmüş bir uçulmuş hasara,
Dam-baca damcılayır, nəm yeriyir daş-divara,
Yerə baxsan – iki barmaq açıb hər taxta ara,
Qapılar, pəncərələr üzdən iraq, Kirpi dayı!
Mən ölüm, gəl bizə bir dəfə qonaq, Kirpi dayı!

Sudan ötrü gəzirik evləri yüz metrə ilə,
Sanki dərman içirik damcı ilə, qətrə ilə,
Qonşulardan alırıq çox kərə borc litrə ilə,
Sən də gəlsən bizə, qəlbin yanacaq, Kirpi dayı!
Mən ölüm, gəl bizə bir dəfə qonaq, Kirpi dayı!

1960

GƏLDİ MƏHƏRRƏM AYI

Gəldi mohorrəm ayı,
Molla fırıldaq dayı!

Qoşul rövzəxanlara,
Köhnə müsəlmanlara,
Gündə get ehsanlara,
Ol hər yerdə sərpayı,
Molla fırıldaq dayı!

Yanla molla Qəvamı,
Tovla beş-on avamı,
Qətlə yetir imamı,
Özün də Şümrün tayı,
Molla fırıldaq dayı!

Batma qəmə, qüssəyə,
Bax Qumriyə, Qüdsiyə,
Oğra beş-on mərsiyə,
Məclisə sal ah-vayı,
Molla fırıldaq dayı!

Toyda oxu saz ilə,
Məsciddə avaz ilə,
Mərsiyə de naz ilə,
Ye bozbaşı, iç çayı,
Molla fırıldaq dayı!

Binadan dolaşıqsan,
Nə molla, nə aşıqsan,
Hər qazanda qaşıqsan,
Bicliyinin yox sayı,
Molla fırıldaq dayı!

Bir "molla"san savadsız,
Məsləksiz, etiqadsız.
Şansız, şərəfsiz, adsız,
Hərcayısan, hərcayı,
Molla fırıldaq dayı!

1960

QIZDI, YA OĞLANDI BU?

Gör necə bir modabaz oğlandı bu,
Sanmayınız cindi, ya şeytandı bu.

Qaşları əyri, qara buynuz kimi,
Bığları qırxıqdı fransız kimi,
Kofta geyib, naz eləyən qız kimi,
Canlar alan qızlara qurbandı bu,
Gör necə bir modabaz oğlandı bu.

Pudralanıb üz-gözü undan da ağ,
Əyri qoyub beretkanı qızsayaq.
Sağrısı enli, şalvarı dar balaq.
Hansı tərəfdəndi, hayandandı bu?
Gör necə bir modabaz oğlandı bu.

Nə işə var meyli, nə məktəb sarı,
Müftə yeyib gəzir bağı, bulvarı.
Bəs kim alır buna bu pal-paltarı?
Sənətə, elmə niyə düşmandı bu?
Gör necə bir modabaz oğlandı bu.

Rəqsdə maildir amerikanlıya,
Oxşamayır azərbaycanlıya.
Heç kəsə yox dəxli, onu danlıya,
Gər deyən olsa ki, xuliqandı bu,
İnanmarıq biz ona, böhtandı bu,
Gör necə bir modabaz oğlandı bu.

1960

CAN SAĞLIĞI

Yaxşı bil, ay kişi, cansağlığının qiymətini,
Yeyib-iç, çəkmə qohum-qardaşının minnətini,

Bax, fərəhlən bu qədəh qaldıran oğlanlarına,
Mum günündə bular hər yerdə yetərlər karına.
Gündə sağlığına içirlər, barı şükr et tarına,
Fövt qılma belə keyf aləminin fürsətini,
Yeyib-iç, çəkmə qohum-qardaşının minnətini.

İndi dörd bir tərəfdən buruğun fantan atır,
Kiçik oğlun mağazinlərdə araq, pivə satır.
Biri bəzzaz malını metrəyə üç sant uzadır,
Biri zavmaq, o da yağ, pendirə şey-mey də qatır.
Gör bu fəxr etdiyin oğlanlarının qeyrətini,
Vətənə, xalqa "sədaqətlə" olan xidmətini.

Sən sovet tərbiyəsin yaxşıca görsəydin özün,
Tez görərdi belə nöqsanları hər yerdə gözün.
İndi varmı bu suala elə layiqli sözün?
Düşünürsənmi, sənə yağdırır el nifrətini,
Yeyib-iç, çəkmə qohum-qardaşının minnətini.

196.

XƏBƏR VAR

Eyb açmağa, ay Kirpi dayı, səndə hünər var,
Qoy mən də yazım, gör nə qədər tazə xəbər var!

Uprovdomu yazsam, deyəcəksən, onu yazma.
Ev damsa, cəhənnəm, uçulur balkonu, yazma,
"Bakqaz"la sudan yaz, işığı, telfonu yazma,
Yüz yol yazılıb, bir də yenə eyləmə təkrar,
Ver izn yazım, gör nə qədər məndə xəbər var...

Vardır hələ nöqsanlı cəhət çox mağazində,
Yaz işçilərin, qorxma, müdirin lap özün də,
Yaz, qənd tozunun un da satırlar əvəzində.
Qəlbirləyən olsa, çıxacaq batmana xalvar,
Ver izn yazım, gör nə qədər məndə xəbər var...

Bir kimsə tramvayların heç qeydinə qalmır,
Parkın da müdiri bu işi sahmana salmır,
Vardır çox adam pul verir, amma bilet almır,
Olmazmı bu sirrin səbəbin eyləmək aşkar?
Ver izn yazım, gör nə qədər məndə xəbər var...

Dəlləkləri də bilmə elə biqanacaqdır,
Onluq verənin tez başına fırlanacaqdır,
Beşlik ki görür, qaşqabağı sallanacaqdır,
Saç-saqqalı qırxdıqca olur müştəri idbar,
Ver izn yazım, gör nə qədər məndə xəbər var...

1960

FƏRSİZ OĞUL

Lap gətirdin məni, ay fərsiz oğul, təngə, zara,
Bir təhər dürt özünü sən də bu kolxozbazara.

Qonşumuz Əkbərə bir bax, yaşın ondan çoxdur,
Kök satır gündə bazarda, elə bil bir oxdur.
Kaş olaydın bu zirəklikdə, yarıncan yoxdur,
Mollalar tək o, gülab-zad da satır pəsməzara,
Bir təhər dürt özünü sən də bu kolxozbazara.

Əsil alverçi bizim molla Sonanın əridir,
Dələduz, oğru uşaqlar da ona müştəridir.
Hər bazarda yeri vardır, neçə ildən bəridir,
Bir gün alverdən uzaqlaşsa, düşər min azara,
Bir təhər dürt özünü sən də bu kolxozbazara.

Məktəbə, elmə mənim tək həvəsin yoxdur, oğul,
Get pasajda rayon alverçilərilə şərik ol,
Gecə-gündüz kefə bax, hörməti hörmət, pulu pul.
Nə xəcalət, nə üzün kütlə yanında qızara,
Bir təhər dürt özünü sən də bu kolxozbazara.

Qorxma, çox iç arağı, çünki düzəldər başını,
Xalqı aldat pulun al, içkiyə ver daşbaşını.
Sonra vur əginə, bir tində uzat yoldaşını,
Sən gedib həbsdə keflən, o da getsin məzara,
Bir təhər dürt özünü sən də bu kolxozbazara.

1960

POÇTALYONUN ŞİKAYƏTİ

Ay Kirpi, mənim dərdimi yaz fürsət olanda,
Poçtalyonu da al nəzərə növbət olanda.

Məktubları, jurnal, qəzeti kənddə, şəhərdə
Mən paylayıram çox evə beşmərtəbələrdə.
Öz işlədiyim yerdə tutulmur bu nəzərdə,
Hər kəs sevinər zəhmətinə qiymət olanda,
Poçtalyonu da al nəzərə növbət olanda.

Keçmişdə də çox yük daşınıb at, qazalaqla,
Carçı dolanardı şəhəri axsaq ulaqla,
Onlar çox əziyyətdə olublar bu sayaqla,
İndi minirəm mən maşına qismət olanda,
Poçtalyonu da al nəzərə növbət olanda.

Poçtalyona bir yaxşı, rahat yer gərək olsun,
Sürətlə gedən saz motoroller gərək olsun,
Poçtalyon olan kəs özü şofer gərək olsun.
Nazirliyə bildir bunu sən söhbət olanda,
Poçtalyonu da al nəzərə növbət olanda.

1960

EHSAN AŞİQİ

İndi ölənin, Kirpi dayı, hörməti yoxdur,
Ehsansız olan məclisin heç ləzzəti yoxdur.

Keçmişki gözəl adətimiz tərk olub indi,
Molla, seyidin hörməti onda birə-mindi.
Lap indikilər mollaların boynuna mindi,
Şərən bu biabırçılığın nisbəti yoxdur,
Ehsansız olan məclisin heç ləzzəti yoxdur.

Ehsan ölünün ruhu üçün bir yaraşıqdır,
Yüzlərlə ona müftə yeyən molla aşıqdır,
Çoxdur eləsi saqqalı yağdan bulaşıqdır,
Tərpənməyə heyvancığazın taqəti yoxdur,
Ehsansız olan məclisin heç ləzzəti yoxdur.

Var molla, gedir alverə kolxoz bazarında,
Axşamlar ölən kimsələrin pəsməzarında,
Ömrün çürüdüb müftə yemək intizarında,
Qarnın otarır, bir kişidən minnəti yoxdur,
Ehsansız olan məclisin heç ləzzəti yoxdur.

1960

TƏMİR EDƏN OLSA

Zəhləm gedir, ay Kirpi, qaranlıq gecələrdən,
Gəl bir gecə keç sən də bu bərbad küçələrdən.

Azdır, demə çirkin küçə, saysan yüzəcəndir,
Lap raysovetin olduğu yerdən bizəcəndir.
Yağmurda bizim məhlədə palçıq dizəcəndir,
Gəl bir nəzər et, burdakı çirkab, selə qardaş!
Çəkdir bu yerin şəklini, tənqid elə, qardaş!

Pul sərf eləyirlər, düzü zəhmət də çəkirlər,
Asfalt küçənin üstünə asfaltı tökürlər,
Bir həftə keçir, bir də görürsən ki, sökürlər,
Vardır küçələr heç qəti asfaltı da yoxdur,
Saymaq nə gərəkdir, belə faktlar hələ çoxdur.

Göyçək Bakı tənqid oluna, indi nahaqdır,
Hərgiz demək olmaz, mədəniyyətdən uzaqdır,
Düzdür, yuxarı məhlələri köhnəsayaqdır,
Tezliklə bu nöqsanlara tədbir edən olsa,
Bərbad küçə qalmaz, onu təmir edən olsa!

1961

TƏZƏ ÇIXAN MOLLALARA

Bəsdir bu fırıldaqların, ay bədyəxan oğlan,
Son ver bu həyasızlığa, bir yol utan, oğlan!

Aç bir gözünü, əsri düşün, gör nə zamandır,
Keçmişki deyil, indikilər dövrü qanandır.
Sən də başını elmlə, sənətlə dolandır,
Ey məsləki pul düşkünü, abrın satan oğlan,
Bəsdir bu fırıldaqların, ay bədyəxan oğlan!

Keçmişləri mövhum ilə kimlər bürümüşlər?
Din noxtasına bağlayıb hər yan sürümüşlər.
Onlardan əsər qalmayıb, indi çürümüşlər.
Elm ilə ayılmış o min ildən yatan, oğlan,
Bəsdir bu fırıldaqların, ay bədyəxan oğlan!

Peykim dolaşır göyləri bir nurlu qəmər tək,
Tutmuş Günəşin dairəsin canlı kəmər tək,
Zülmət gecənin sirri işıqlandı səhər tək.
Ecazına peykin baş əyir kəhkəşan, oğlan,
Bəsdir bu fırıldaqların, ay bədyəxan oğlan!

Dərvişliyə var puldan ötrür meylin əgərçi,
Yalvarma, inanmaz sənə bir fəhlə, əkinçi,
Boş gəzmə, bir iş tap özünə, olma dilənçi,
Ver arxanı bir zəhmətə, rahət dolan, oğlan,
Bəsdir bu fırıldaqların, ay bədyəxan oğlan!

1961

TƏNQİDİMİZ SABİRANƏDİR

Tənqidə eşqi var, qələmim mahiranədir,
Hər söz ki yazdı, bamәzədir, Sabiranədir!

Baxmaz yalançı nasirə, ya lovğa şairə,
Sevməz vəzifə, rütbə, yalaqlıq, nə xatirə.
Qorxmaz çıxardar eybini kim olsa zahirə,
Şerə yamaq vuranlara bir taziyanədir,
Tənqidimiz bu kimsələrə Sabiranədir!

Var bəzi şair, indi də əşara nabələd,
Fərq etsə də əruzu hecadan qələt-qələt,
Hər yerdə göstərər özünü "əhli-mərifət".
Bu "təb" ilə sanır ki, "ədibi-zamanə"dir,
Tənqidimiz bu kimsələrə Sabiranədir!

Var bəziləri ki, düz yaza bilmir öz adını,
Bir şer söyləyəndə qırır qol-qanadını,
Diplomda "ali" zənn eləyirsə savadını,
Əslində bunlar elmü sənətdə miyanədir,
Tənqidimiz bu kimsələrə Sabiranədir!

1962

VAR ELƏ OĞLAN Kİ...

Kirpi dayı, hər dəfə keçməz belə,
Öz gələcək günlərini fikr elə,
Jurnala az yaz, bizi tənqid elə.
Biz demirik, tənqidin irad deyil,
Ya bizə təsir eyləyən zad deyil.

Var elə "oğlan" yetişib qırx beşə,
İndiyəcən kəsb eləmir bir peşə,
Müftə yeyir, getməyir tənbəl işə,
Sənətə, elmə əyilən zad deyil,
Tərbiyəsizdir, qanan övlad deyil.

Bir neçəsin danlayıram, – Ay bala,
Budkada telfonları az qurdala.
Pul salıram, bir də qayıtmır dala,
Avtomata, sən demə, bir zad deyil,
Ya onu icad edən ustad deyil.

İndi nəzakətdən açaq söhbəti,
Bəzi cavanlardan edək qeybəti,
Eyləməyirlər qocaya hörməti.
Ədəb və hörmət ki ayıb, zad deyil,
Şəninə layiqsiz olan ad deyil.

Bax qocadan nifrət edən oğlana,
Gördü məni, tutdu üzün tez yana.
Açdı tramvayda qiraətxana.
Guya ki, o, elmi sevir, yad deyil,
Yaxşı görür gözləri, kor-zad deyil.

1962

ÖZÜN ÖL!

Vermə ölmək xəbərin xalqa yalandan, özün öl!
Ölməyib sağdır o sən sevməyən insan, özün öl!

Şaiyə yaymaq ilə hörmətin artmaz, bunu bil!
Qəlbi bədniyyət olan məqsədə çatmaz, bunu bil!
Hər cür uydurma, yalan kimsəyə batmaz, bunu bil!
Pak qılammaz belə murdarlığı ümman, özün öl!

Sevinirsən yenə qarşında orucluq ayı var,
Qurduğun felə uyan bəzi müsəlman dayı var,
Hələ molla-seyidin iftar-obaşdan payı var,
Dolacaq boşqabına sirkə-badımcan, özün öl!

Gah olursan bibiheybətli, gahı maştağalı,
Yoxsa ehsanda bu il az yemisən şorqoğalı?
Ya burax mollalığı, get toya çaldır qavalı,
Söylə dost-aşnaya meyxanada hədyan, özün öl!

Varlı ehsanına getsən kök olar onda dəmin,
Kasıba getməyəcəksən, gər ola doğma əmin,
Vay o mərhuma ki, lap az ola həqqül-qədəmin,
Deyinirsən ki, ölüb kənddə lüt-üryan, özün öl!

Xalqa can sağlığı istə, bir utan, bax yaşına,
Çox hərissən, bilirik, müftəcə ehsan aşına.
Bədniyabətliyin, axır gələcək öz başına,
Durmusan növbəyə əvvəlcə bu başdan, özün öl!

İndiki nəsil, inan, köhnəni qatmaz təzəyə,
El gərək heykəli-mənhusunu hər rəng bəzəyə,
Qoyacaq ibrət üçün nəhs vücudun muzeyə,
Deyəcək cəmdəyinə "saxta rövzəxan", özün öl!
O zaman qaçmağa olmaz sənə imkan, özün öl!

1963

AL QƏLƏMƏ

"Yoxdur eybim, – desə hər kim, – məni tənqid eləmə",
Baxma, bic tülküdür, ay Kirpi dayı, al qələmə.

Bəzi aşxananı tənqid elə əvvəl başdan,
Elə sanc iynələrin ox kimi keçsin daşdan.
Müştəri razı qala istəsə aşpaz aşdan –
Qatmasın yarma ilə kartofu o şor kələmə,
Kim ki, tənqidinə layiqdir, onu al qələmə.

Yeni çayxanalar olmuş mədəniyyət ocağı,
Yuyulub nəlbəki-iskan, silinib qab-qacağı,
Gül-çiçəklə bəzənib hər tərəfi, hər bucağı...
Kül tökür güldana leyk bir para əhli-zələmə,
Kim ki, tənqidinə layiqdir, onu al qələmə.

Hər səhər süd satan arvadları çək imtahana,
Pul verir müştəri, "izdaç" da qayıtmır bu yana.
Qaynayan vaxtda o süd diqqətilə bax qazana,
Gahi pendir suyudur, gahi qatıq, gah dələmə,
Kim ki, tənqidinə layiqdir, onu al qələmə.

Cibkəsənlər, görünür indi yanar bir od olub,
Mollalar tək buların da bazarı lap xod olub,
"Paçkabasmaq" azalıb, palto aparmaq mod olub...
Gec-tez axır bu siçanlar düşəcəklər tələmə,
Kim ki, tənqidinə layiqdir, onu al qələmə.

1963

CİBİŞDAN AYI

Gəldi çün-mahi-məhərrəm, bu müsəlman ayıdır,
Müftəxor mollaların hər gecə ehsan ayıdır.

Sanma sən mollalığı "pak, müqəddəs" sənət!
Görməyirsənmi sənə etmədə aləm nifrət?
Nə qədər yağsa da gər üstünə hər gün nifrət,
Xalqı aldat, pulunu al, ye, cibişdan ayıdır!
Müftəxor mollaların hər gecə ehsan ayıdır.

Toyda meyxana deyən, ehsana get mollalığa,
Bəzi məclisdə aşıqlar tək atıl ortalığa,
Dərviş ol, tut bir əsa əldə, bürün arxalığa,
Get də kəndlərdə oxu, molla Süleyman ayıdır,
Müftəxor mollaların hər gecə ehsan ayıdır.

Xalq ayıqdır, hədər etmə gecə-gündüzlərini,
Hansı bir əsrdəsən, aç bir o kor gözlərini,
Oxuma gənclər üçün lağlağı boş sözlərini...
Ölkəmizdə yeni ildir, yeni dövran ayıdır,
Demə ki, mollaların hər gecə ehsan ayıdır.

Xeyli vaxtdır ki, uyubsan bu fırıldaq sənətə,
Etdiyin fitnə-fəsad sığmaz, inan, yüz qəzetə.
Gün gələr, cümlənizi xalq atar bir səbətə,
Saf-çürük bəlli olar, haqq ilə mizan ayıdır,
Demə ki, mollaların hər gecə ehsan ayıdır.

1963

YENƏ TƏSİR ELƏMİR...

Sirkdə çox tərbiyəni verir bil insan ayıya,
Yenə təsir eləmir molla Məhərrəm dayıya!

Qızışıb mahi-əza mömün olan hər yerdə,
Kef üçün pul qazanır mollanüma minbərdə.
Yerdə şiə çəkir ah-nalə, mələk göylərdə,
Yolu yoxdur bu əza məclisinin hərcayıya,
Yenə təsir eləmir molla Məhərrəm dayıya!

Ayılıb aləm, a molla, sən ayılma, hələ yat,
Ula bayquştək, avam gördün, onu tez ağlat.
Bəsdir, oynatdı bizi "təntəneyi-mövhumat"!
Bir utan, nifrət edir xalq bütün bihəyaya,
Yenə təsir eləmir molla Məhərrəm dayıya!

Gör nə asanlaşıb insanlar üçün elmi-nücum,
Eyləyirlər kişilər indi də göylərə hücum.
Sən də dərvişlik elə, hər gecə ehsanlara cum,
Dilənib yığdığının yarsını ver sərpayıya,
Yenə təsir eləmir molla Məhərrəm dayıya!

Tanıyıb bilməlidir xalqımız, əlbəttə, səni,
Niyyətindir eləyən yolçu təbiətdə səni,
Nə şəhərmizdə sevən var, nə də bir kənddə səni,
Qovlayırlar o saat kölgəsi düşcək qapıya.
Yenə təsir eləmir molla Məhərrəm dayıya!

1963

EHSANLARIMIZ

Səndən, ay Kirpi dayı, var yeni bir xahişimiz
Sən əgər mərhəmət etsən, düzələr hər işimiz.

Yaz bu elanımı bilsin cavan oğlanlarımız,
Təzədən eşqə düşüb köhnə müsəlmanlarımız.
İndi var keçmişə nisbət gözəl ehsanlarımız,
Nə qədər mollamız artıb, nə qədər dərvişimiz,
Sən əgər mərhəmət etsən, düzələr hər işimiz.

Hərə almış əlinə bir dənə yasin, çərəkə,
Oxuyur şuri-plovla səsi qalxıb fələkə.
Ölənin ruhunu cənnətdə qoşurlar mələkə,
Olmamışdır bu şərafətdə bizim keçmişimiz,
Sən əgər mərhəmət etsən, düzələr hər işimiz.

Yenilikdən danışırsan, görürük bir parası,
Özünün bir tikə yoxdur yeniliklə arası,
Eləmişdir Bakını mərsiyəxan fabrikası,
Bəllidir, məncə, bu gün hər kəsə əzvayişimiz,
Sən əgər mərhəmət etsən, düzələr hər işimiz.

Baxıb indi görürük bir neçə dümbək vuranı,
Üləmadan sayılır, şəhrin olub rövzəxanı,
Aldadır xalqı, beş-on xətt edib əzbər Quranı,
Buna da razı deyildir yüzə bir yetmişimiz,
Sən əgər mərhəmət etsən, düzələr hər işimiz.

1964

SAVADSIZ XANƏNDƏLƏRƏ

Xanəndəsən, oğlan, avazın yaxşı avazdır,
Hərçənd ki, elmin, biliyin bir qədər azdır.

Eylə özünə incəsənət karını peşə,
Çal musiqinin böyrünə min zərb ilə tişə.
Şerin, qəzəlin qol-qanadın sındır həmişə,
Dəryada üzüb, anlama, dərin ya dayazdır.
Xanəndəsən, oğlan, avazın yaxşı avazdır!

"Gənc" kəlməsini "kənc" oxu, "qəm" kəlməsini "xəm",
"Əqd" isə onu "üqd" oxu, "səlm" isə "səəlləm"
Ya "mütrübü" "mətrüb" oxu, "dum" kəlməsini "dəm",
Mənasını qanma, bu nə tardır, bu nə sazdır,
Xanəndəsən, oğlan, avazın yaxşı avazdır!

Göstər özünü elmli, hər yerdə xoruzlan,
Salmaz bu qəbahət səni, qəm çəkmə nufuzdan.
Cəh-cəhlə hecanı oxu, fərq etmə əruzdan,
Kimdir düşünən ya bu "Segah"dır, bu "Hecaz"dır,
Xanəndəsən, oğlan, avazın yaxşı avazdır!

Öz qədrini bil, indi ki hər yerdə adın var,
Söz sormağa, öyrənməyə çoxdan inadın var.
Nə elmi düşüncən, nə bir orta savadın var,
Zənn etmə qananlar səni səndən natarazdır,
Xanəndəsən, oğlan, avazın yaxşı avazdır!

Ey börkü göz üstündə, trubkan damağında,
Gündüz-gecə keyfində, çalıb oynamağında.
Şalyapin əgər gəlsə, dayanmaz qabağında.
Fikr eyləmə, bundan belə keyfin daha sazdır,
Xanəndəsən, oğlan, avazın yaxşı avazdır!

Xanəndəliyin hörməti var, yaxşı sənətdir,
Xalqa, səni bil, sevdirən ancaq bu cəhətdir.
Hər söz oxusan, anlama, düzdür, ya qələtdir,
Ver ərzə, bu gündən özünü radioya yazdır,
Xanəndəsən, oğlan, avazın yaxşı avazdır!

1964



MOLLAXANA

Köhnə dostumla gözəl bir gündə,
Görüşərkən mayın on dördündə
"Çox təəccüb, – dedi, – bir böylə zaman,
Laübali keçirirsən güzəran.
Bax bir həmtaylarına, ibrət elə,
Bir işin ardına düş, hümmət elə.
Həmının sənəti, elmi, hünəri,
Oxunur kənddə, şəhərdə əsəri.
Sən də onlar kimi bir şairsən,
Yenə az-çox bu işə mahirsən.
Oxunur hər gecə hər yerdə sözün,
Özünü gör necə məhv etdin özün,
Gəl bu işsizliyi at, əsrə yanaş,
İndi aləm dəyişibdir başabaş;
Əl-ələ ver yeni şairlər ilə,
Yaz, yeni şerlər icad eylə".
" – Xəbərin yox, – dedim, – əhvalımdan,
Büsbütün tərcümeyi-halımdan.
Əvvələn, dövrümü, tariximi bil,
Sonra varsa yeri, aç töhmətə dil.
Bakı şəhrində doğuldum anadan,
Keçmədi bir elə müddət aradan.
Atam öldü, mənim artdı kədərim,
Yoxdu heç şeydən, uşaqdım, xəbərim.
Qaldım avara, səfil, özbaşına,
Elə ki çatdım on-on bir yaşına,
Məktəbə, sənətə artdı həvəsim,
Kimsəsizdim, yox idi dadrəsim.
Möhnətim çox, qəmim ondan artıq,
Baxıram dövrəmə yazıq-yazıq.
Sorma kimlərdi mühitimdəkilər,
Görməsinlər o günü indikilər.